AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

31 MAY 2019-cu il CÜMƏ № 118 (6445) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

# Prezident İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrlərini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 30-da ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskontini, Rusiyadan olan həmsədri İqor Popovu, ABŞ-dan olan həmsədri Endrü Şoferi və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşiki qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

## Latviya Respublikasının yeni seçilmiş Prezidenti Zati-aliləri cənab Egils Levitsə

Hörmətli cənab Levits,

Latviya Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Azərbaycan-Latviya münasibətləri xoş ənənələrə malikdir. Ümidvaram ki, dostluq əlaqələrimizin daha da möhkəmləndirilməsi, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın müvəffəqiyyətlə davam etdirilməsi yolunda birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 30 may 2019-cu il.**

## Litva Respublikasının yeni seçilmiş Prezidenti Zati-aliləri cənab Gitanas Nausedaya

Hörmətli cənab Nauseda,

Litva Respublikasının Prezidenti vəzifəsinə seçkilərdə qələbəniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Litva arasındakı münasibətlər dinamik və ardıcıl inkişaf yolundadır. Ümidvaram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq dostluq əlaqələrimizin daha da möhkəmləndirilməsi, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın dərinləşdirilməsi istiqamətində birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qarşıdakı məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 30 may 2019-cu il.**

## Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Vergilər Nazirliyi Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinin həmin Nazirliyin tərkibində fəaliyyət göstərməsinin təmin edilməsi məqsədilə müvafiq normativ hüquqi aktların layihələrini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**2.** Bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş normativ hüquqi aktların layihələri hazırlanarkən:

*2.1.* cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində beynəlxalq standartlara və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərə riayət olunması təmin edilsin;

*2.2.* cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində Azərbaycan Respublikasının müvafiq qurumlarının üzv olduğu beynəlxalq təşkilatlar bu sahədə idarəetmənin təkmilləşdirilməsi məqsədilə görülən tədbirlər barədə məlumatlandırılsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 30 may 2019-cu il.**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə İordaniya Haşimilər Krallığının xalqı və hökuməti adından, şəxsən öz adımdan Sizə təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Bu fürsətdən istifadə edərək, Zati-aliləri, Sizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına isə davamlı tərəqqi və rifah diləyirəm.

*Hörmətlə,*

**II Abdullah ibn Al Hüseyn**
**İordaniyanın Kralı**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Əs-səlamu aleykum varahmatullahi vabarakatuhu.

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Sizi təbrik etməkdən sevinc duyur, bu fürsətdən istifadə edərək İraq Respublikasının müxtəlif sahələrdə xalqlarımızın mənafeyi naminə dost ölkələrimiz arasındakı əlaqələrin inkişafına və möhkəmlənməsinə olan istəyini təsdiqləyirəm.

Cənab Prezident, Sizə davamlı müvəffəqiyyətlər və möhkəm cansağlığı, dost Azərbaycan xalqına inkişaf və rifah arzulayıram.

*Ən dərin hörmətlə,*

**Bərham Saleh**
**İraq Respublikasının Prezidenti**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Milli bayramınız - 28 May Respublika Günü münasibətilə Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram.

Əminəm ki, ölkələrimiz arasındakı gözəl münasibətlər və əməkdaşlıq qarşıdakı illərdə daha da intensivləşəcək.

Zati-aliləri, Sizə ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Səmimiyyətlə,*

**xanım Kersti Kalyulayd**
**Estoniya Respublikasının Prezidenti**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu.

Milli bayramınız - Respublika Günü münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Bizim ümumi türk köklərimiz, çoxəsrlik tarixə malik mənəvi-mədəni qohumluğumuz, zəngin əməkdaşlıq təcrübəmiz, müasir Azərbaycanın sosial-iqtisadi inkişafında qazanılmış və Sizin adınızla ayrılmaz surətdə bağlı olan sanballı uğurlar ənənəvi Başqırdıstan-Azərbaycan dostluq əlaqələrinin daha da genişlənməsi üçün yaxşı zəmin yaradır.

Rusiya Federasiyasının Başqırdıstan Respublikası Azərbaycan Respublikası ilə çoxtərəfli əməkdaşlığın inkişafına böyük əhəmiyyət verir. Bu əməkdaşlığın tarixi, ilk növbədə, "İkinci Bakı" adlandırılan Başqırdıstanın neft sahəsinin inkişafı ilə bağlıdır. Azərbaycanlı mütəxəssislər bizim respublikada neftçıxarma və neft emalı sənayesinin formalaşmasına fəal kömək ediblər.

Elm-təhsil və mədəni-humanitar əlaqələr mühüm ənənəvi sahələr kimi qalır. Azərbaycan təmsilçiləri Başqırdıstanda keçirilən mədəni tədbirlərin daimi iştirakçılarıdır. Ənənəyə görə, respublikamızda yaşayan müxtəlif millətlərin nümayəndələri Novruz bayramında bir yerə toplaşırlar və Azərbaycan diasporu sözsüz ki, ən fəal və parlaq diasporlardan biridir. Biz bütün perspektivli istiqamətlər üzrə dostluğu və tərəfdaşlığı bundan sonra da möhkəmləndirəcəyik.

Hörmətli İlham Heydər oğlu, milli bayramınız - Respublika Günü münasibətilə Sizi bir daha ürəkdən təbrik edirəm.

Sizə və bütün Azərbaycan xalqına firavanlıq, rifah və yeni uğurlar arzulayıram.

*Hörmətlə,*

**Radi Xabirov**
**Rusiya Federasiyasının**
**Başqırdıstan Respublikasının rəhbəri**
**səlahiyyətlərini müvəqqəti icra edən**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm cənab Prezident.

İcazə verin, Sizə Moldova Respublikasının Qaqauz Yeri Muxtar Ərazi Qurumunun İcraiyyə Komitəsi adından dərin hörmət və ehtiramımı bildirim, Sizi, eləcə də Sizin şəxsinizdə Azərbaycan xalqını Respublika Günü münasibətilə təbrik edim.

Respublika Günü Azərbaycan xalqının tarixində ən əlamətdar və parlaq günlərdən biridir. Bu bayram öz Vətəni, onun zəngin tarixi və özünəməxsus orijinal mədəniyyəti ilə fəxr edən hər kəsin bayramıdır. 101 il bundan əvvəl Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə ilk parlamentli demokratik respublika və müsəlman Şərqində qadınlara səsvermə hüququ, eləcə də bütün vətəndaşlarına cinsindən, irqindən və dini mənsubiyyətindən asılı olmayaraq bərabər hüquqlar verən ilk dövlət olmuşdur.

Vətənpərvərlik adət-ənənələrinə sadiqliyini, eləcə də neçə-neçə nəsillərin dəyərlərini qoruyub saxlayan Azərbaycan gələcək inkişaf naminə qarşıya qoyulmuş planların uğurla reallaşdırılması yolu ilə addımlayır. Ölkə əhalisinin zəhmətsevərliyi və həyat optimizmi, tarixi keçmişə və milli ənənələrə böyük diqqət və hörmətlə yanaşması Azərbaycan Respublikasının inkişafının əsasları hesab olunur.

İcazə verin, bu təntənəli bayram günündə Sizə və Sizin şəxsinizdə bütün Azərbaycan xalqına cansağlığı, həmrəylik və əbədi sülh arzu edim. Qoy, hər bir insanın evində əmin-amanlıq hökm sürsün, xəstəlik və çətinliklər isə onlardan yan keçsin.

Qeyd etmək istərdim ki, Azərbaycan və Qaqauz Muxtar Ərazisini ümumi dil, mədəniyyət, adət-ənənələr və dini dəyərlər birləşdirir. Əminik ki, Azərbaycan Respublikası və Qaqauz Muxtar Ərazisi arasındakı əməkdaşlıq qardaş xalqlarımızın rifahına və qarşılıqlı dəstəyinin möhkəmləndirilməsinə xidmət edəcəkdir.

Çox hörmətli cənab Prezident, fürsətdən istifadə edərək, Sizə bir daha dərin hörmət və ehtiramımı bildirirəm.

*Ən xoş arzularla,*

**Vadim Çeban**
**Moldova Respublikasının Qaqauz Yeri Muxtar Ərazi Qurumunun İcraiyyə Komitəsinin sədri vəzifəsini icra edən**

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1999-cu il 15 aprel tarixli 122 nömrəli və "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2001-ci il 26 dekabr tarixli 616 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 387 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

**1.** "Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, N 4, maddə 231; 2000, N 3 (I kitab), maddə 159; 2008, N 7, maddə 611, N 8, maddə 719, N 10, maddə 896; 2009, N 2, maddə 71, N 12, maddələr 977, 987; 2011, N 7, maddə 633; 2012, N 6, maddə 545; 2014, N 7, maddə 791, N 11, maddə 1408, N 12, maddə 1570; 2015, N 1, maddə 20; 2016, N 6, maddə 1050; 2018, N 10, maddə 2007, N 12 (I kitab), maddə 2615; 2019, N 2, maddə 206) 2-ci hissəsinin yeddinci abzasının "c" bəndində ", 56-cı maddəsinin dördüncü hissəsində və 77-ci maddəsinin beşinci hissəsində" sözləri "və 56-cı maddəsinin dördüncü hissəsində" sözləri ilə əvəz edilsin.

**2.** "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 26 dekabr tarixli 616 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, N 12, maddə 762; 2006, N 12, maddə 1034; 2008, N 3, maddə 187; 2016, N 9, maddə 1464) 4-cü hissəsinə "yerli orqanlarına" sözlərindən sonra "və "DOST" mərkəzlərinə" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 16 may 2019-cu il.**

# Bakıda Gürcüstanın milli bayramı qeyd edilib





**Gürcüstanın Azərbaycandakı səfirliyi ölkəsinin milli bayramı - Müstəqillik Günü münasibətilə mayın 30-da rəsmi qəbul təşkil edib.**

AZƏRTAC xəbər verir ki, qəbulda əvvəlcə Azərbaycanın və Gürcüstanın dövlət himnləri səsləndirilib.

Gürcüstanın Azərbaycandakı səfiri Zurab Pataradze qəbulda çıxış edərək ölkəsinin müstəqilliyinin tarixindən danışıb. İki ölkə arasındakı əlaqələrdən danışan səfir bildirib ki, Azərbaycan ilə Gürcüstan arasındakı strateji münasibətlər yalnız regional layihələrlə məhdudlaşmır. İki ölkə beynəlxalq arenada da yaxın münasibətlərə malikdir.

Səfir deyib ki, Gürcüstan dövlət müstəqilliyini möhkəmləndirir, iqtisadiyyatını inkişaf etdirir, azad və demokratik cəmiyyət qurur. Bu proseslərdə Gürcüstanın Azərbaycanla əməkdaşlığının əhəmiyyətinə toxunan diplomat xalqlarımızın qədim dostluq ənənələrinə malik olduğunu vurğulayıb.

Milli Məclisin Sədri Oqtay Əsədov əlamətdar bayram münasibətilə Prezident İlham Əliyevin adından Gürcüstan xalqını təbrik edib. Sədr bildirib ki, iki xalqın taleləri oxşardır. Hər iki xalq eyni tarixi dövrdə müstəqillik əldə edib. Gürcüstan və Azərbaycan yaxın ölkələr olmaqla bərabər, həm də strateji tərəfdaşlardır. Həyatın bütün sahələrində münasibətlərimiz inkişaf edir. Reallaşdırılan enerji layihələri xalqlarımızın gələcək rifahını şərtləndirir. Ölkələrimiz arasında münasibətlər qarşılıqlı surətdə inkişaf etdirilir. Hər iki ölkənin parlamentlərində dostluq qrupları var. Beynəlxalq təşkilatlarda da hər iki ölkənin deputatları eyni mövqedən çıxış edir. Hər iki ölkə bir-birinin ərazi bütövlüyünü dəstəkləyir.

Milli Məclisin Sədri əmin olduğunu bildirib ki, iki ölkə arasında münasibətlər bundan sonra da xalqlarımızın rifahı naminə inkişaf edəcək.

Tədbir bədii hissə ilə davam edib.

Qəbulda rəsmi şəxslər, Milli Məclisin deputatları, xarici ölkələrin Bakıdakı səfirləri, beynəlxalq təşkilatların təmsilçiləri, kütləvi informasiya vasitələrinin, ictimaiyyətin nümayəndələri iştirak ediblər.

**AZƏRTAC**

# Polşa Prezidenti Andjey Duda Azərbaycana rəsmi səfərə gəlib



**Polşa Respublikasının Prezidenti Andjey Duda mayın 30-da Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Polşa Respublikasının Prezidenti Andjey Dudanı hava limanında Azərbaycan Respublikasının Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Nadir Hüseynov və digər rəsmi şəxslər qarşıladılar.

**AZƏRTAC**

# Ali Məhkəmənin sədri Slovakiyada beynəlxalq konfransda iştirak edib

**Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayevin rəhbərlik etdiyi nümayəndə heyəti mayın 27-dən 29-dək Slovakiya Respublikasının paytaxtı Bratislavada keçirilən Mərkəzi və Şərqi Avropa ölkələrinin Ali Məhkəmə sədrlərinin 9-cu konfransında iştirak edib.**

Ali Məhkəmənin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, konfransın keçirilməsində əsas məqsəd məhkəmə sədrləri üçün ümumi maraq kəsb edən mövzular ətrafında fikir mübadiləsi aparmaq, məhkəmələrin üzləşdiyi mövcud problemlərin həlli ilə bağlı təcrübələri paylaşmaq olub.

Tədbirdə müasir mətbuat mühitində məhkəmələrin dəyərlərinin ictimaiyyət tərəfindən səmərəli şəkildə öyrənilməsi, vahid məhkəmə təcrübəsinin yaradılmasında Ali Məhkəmənin rolu, insan hüquqlarının təşviqində məhkəmələrin əhəmiyyəti, hakimlərin seçilməsi, səmərəli intizam mexanizmləri, bütün mərhələlərdə dəqiq, əsaslandırılmış fikirlərin verilməsi mövzularında məruzələr dinlənilib.

Konfransın ikinci günündə Ali Məhkəmənin sədri Ramiz Rzayev "Hakimlərin seçilməsi" mövzusunda çıxış edib. Ali Məhkəmənin sədri qeyd edib ki, ulu öndər Heydər Əliyevin əsasını qoyduğu məhkəmə-hüquq islahatlarını uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə ölkəmizdə ədalət mühakiməsinin inkişafında keyfiyyətcə yeni dəyişikliklər baş verib, məhkəmələrin fəaliyyətinin hüquqi əsasları yaradılıb, vətəndaşların məhkəmələrə müraciət imkanlarının asanlaşdırılması məqsədi ilə regionlarda yeni məhkəmələr təşkil edilib, onların səlahiyyətləri genişləndirilib, sayı artırılıb, maddi təminatları yaxşılaşdırılıb. Bütün bunlar həm də hakimlərin şəffaf prosedurlar əsasında seçilməklə tərkibinin əsaslı şəkildə yeniləşməsinə nail olmaqla mümkün olub. Test üsulu ilə imtahan verən və bir neçə müsabiqə mərhələsindən keçərək hakim adını qazanan insanların əksəriyyəti gənclərdən ibarətdir. Hakimlərin ən şəffaf seçim proseduru bir sıra dövlətlərə nümunədir.

Məhkəmə-hüquq islahatlarının həyata keçirilməsində Məhkəmə-Hüquq Şurasının rolunu önə çəkən Ali Məhkəmənin sədri qarşıya çıxan problemlərin aradan qaldırılmasında, görülən işlərin və həyata keçirilən tədbirlərin həcminin və miqyasının artırılmasında kollegiallıq ənənələrindən geniş istifadə edildiyini bildirib.

Ali Məhkəmənin sədri bir sıra ölkələrin Ali məhkəmələrinin sədrləri ilə görüşlərində və söhbətlərində Azərbaycanda məhkəmə islahatı zamanı toplanmış müsbət təcrübəyə diqqəti cəlb edib, bununla bağlı geniş söhbət aparıb, suallara cavab verib. Faydalı fikir mübadiləsi zamanı Azərbaycanın məhkəmə təcrübəsinə böyük maraq göstərilib.

**AZƏRTAC**

*Şahin MUSTAFAYEV:*

# Prezident İlham Əliyev qeyri-neft sənayesinin inkişafını strateji kurs kimi müəyyən edib



**Ölkəmizdə həyata keçirilən əsaslı islahatlar nəticəsində inkişafın Azərbaycan modeli iqtisadiyyatın şaxələndirilməsi, neftdən asılılığın minimuma endirilməsi, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, yeni sənaye sahələrinin yaradılması, qeyri-neft sənayesinin ixrac potensialının artırılması sayəsində daha da zənginləşdirilib. Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev AZƏRTAC-a məxsusi müsahibəsində ölkəmizdə sənaye sahəsinin inkişafı ilə bağlı görülən işlərdən söhbət açıb.**

**–Cənab nazir, Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar kontekstində qeyri-neft sənayesinin inkişafı barədə fikirlərinizi bilmək istərdik.**

–Ümummilli lider Heydər Əliyevin qüdrətli dövlətin qurulmasına hədəflənmiş, uzaqgörən inkişaf strategiyası yeni dövrdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilir, ölkəmizin siyasi-iqtisadi imkanları daha da genişlənir, beynəlxalq aləmdə nüfuzu artır.

Azərbaycanın əldə etdiyi uğurlu nəticələr, inkişaf göstəricilərinin davamlı olaraq yüksəlməsi həyata keçirilən siyasətin, aparılan islahatların real həyatda təsdiqini əks etdirir, sosial-iqtisadi nailiyyətlərin davamlılığı və dayanıqlı inkişaf üçün etibarlı zəmin yaradır. Təsadüfi deyildir ki, dünya qlobal maliyyə və iqtisadi böhranı şəraitində inkişaf etmiş bir çox dövlətlər ciddi çətinliklərlə üzləşdikləri halda, Prezident İlham Əliyevin çevik, praqmatik siyasəti sayəsində Azərbaycan xarici iqtisadi təsirləri neytrallaşdırıb, nəzərdə tutulan bütün sosial-iqtisadi proqramlar tam icra edilib, iqtisadiyyatımız artıb. Bütün bunlara nail olunmasında isə, iqtisadiyyatın şaxələndirilməsi, neftdən asılılığın minimuma endirilməsi, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi tədbirləri xüsusi önəm kəsb edir.

Bu baxımdan dövlətimizin başçısının sənayeləşmə siyasətinə uyğun olaraq, mövcud təbii və iqtisadi resursların istehsala cəlb edilməsi, yeni sənaye sahələrinin yaradılması, ən müasir texnologiyalar təmin edilməsi istiqamətində sistemli tədbirlər həyata keçirilir.

Belə ki, iqtisadi tərəqqidə "Bizim uğurlu inkişafımız qeyri-neft sənayesinin hesabına təmin edilməlidir" prinsipini strateji kurs kimi müəyyən edən Prezident İlham Əliyev müvafiq sərəncamları ilə bu sahəyə xüsusi diqqətin göstəricisi kimi, 2014-cü ili ölkəmizdə "Sənaye ili" elan edib, həmin ilin dekabrında "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nı təsdiqləyib. Proqram sənayenin modernləşdirilməsi və strukturunun təkmilləşdirilməsi, qeyri-neft sənayesinin ixrac potensialının artırılması, enerjidən səmərəli istifadə edən, yüksək əlavə dəyər yaradan rəqabətqabiliyyətli sənaye istehsalının genişləndirilməsi, yeni istehsal sahələri üçün ixtisaslı kadrların hazırlanması və s. kimi istiqamətləri özündə ehtiva edir.

Dövlət Proqramı üzrə tədbirlərin həyata keçirilməsi, bütünlükdə uğurlu sənayeləşmə siyasəti səmərəli nəticələrini verir. Məsələn, qeyri-neft sənaye istehsalı 2015-ci ildə 8,4 faiz, 2016-cı ildə 4,8 faiz, 2017-ci ildə 3,7 faiz, 2018-ci ildə isə 9,1 faiz artıb.

Hazırkı dövrdə sənayenin yeni modellərin tətbiqi ilə inkişaf etdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Qlobal çağırışlarla uzlaşan sənaye parkları və məhəllələri, aqroparklar kimi mütərəqqi mexanizmlər innovativ müəssisələrin yaradılmasına, ixracyönümlü məhsulların istehsalının genişləndirilməsinə, neft-qaz amilindən asılılığın daha da azaldılmasına yeni imkanlar açır.

Bu baxımdan müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənayenin inkişafının təmin edilməsi, bu sahəyə sahibkar marağının artırılması və daha çox investisiyanın cəlb edilməsi, istehsal sahəsində məşğulluğun yüksəldilməsi vacib amillərdir.

Yeri gəlmişkən, Azərbaycanda əlverişli biznes və investisiya mühiti iqtisadiyyatın digər sahələri ilə yanaşı, sənayedə də sahibkarlıqla məşğul olmaq istəyənlər üçün münbit şərait yaradır. Ölkəmizdə işgüzar sferanın əlverişliliyi, aparılan islahatların real nəticələri nüfuzlu beynəlxalq təşkilatlar və reytinq agentlikləri tərəfindən yüksək qiymətləndirilir. Təsadüfi deyildir ki, Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycan öz mövqeyini 32 pillə yaxşılaşdıraraq 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb, dünyanın 10 ən islahatçı ölkəsi siyahısına daxil edilib və ən çox islahat aparan ölkə elan olunub. Hesabatda ölkəmiz 10 göstəricidən 8-i üzrə irəliləyib. Misal üçün, "Biznesə başlama" göstəricisi üzrə 9 pillə irəliləyərək 9-cu pilləyə, "Kiçik investorların maraqlarının qorunması" göstəricisi üzrə 8 pillə irəliləyərək 2-ci pilləyə yüksəlib.

**–Qeyri-neft sənayesinin hansı sahələri üzrə daha çox artım müşahidə edilir?**

–Azərbaycanda həyata keçirilən səmərəli və dəqiq hədəflərə hesablanmış sosial-iqtisadi siyasətin real nəticələri konkret rəqəmlərdə də ifadə olunur. Bu ilin birinci rübündə ölkə iqtisadiyyatına 2,8 milyard dollar investisiya yatırılıb ki, bunun da 2 milyard dollarını qeyri-neft sektoruna qoyulmuş sərmayə təşkil edir. Həmin müddətdə ümumi daxili məhsul 3 faiz artıb. Bu, son bir neçə il ərzində ən yüksək göstərici hesab olunur. Dövlətimizin başçısının rəhbərliyi ilə həyata keçirilən islahatlar ümumi daxili məhsulun artımının daha çox sənaye istehsalının hesabına formalaşmasını şərtləndirir. Ümumi daxili məhsulda sənayenin payının ildən-ilə nəzərəçarpacaq dərəcədə artması bunu aydın şəkildə göstərir: Ümumi daxili məhsulda sənayenin payı 2015-ci ildə 32,9 faiz, 2016-cı ildə 37,1 faiz, 2017-ci ildə 40,1 faiz, 2018-ci ildə 44,2 faiz, 2019-cu ilin birinci rübündə isə 46 faiz olub.

Ötən il ərzində Azərbaycanda sənaye istehsalı 1,5 faiz artıb. İnkişaf meyili 2019-cu ildə də davam edir. Bu ilin ilk rübündə qeyri-neft sektorunda 1,7 faiz, sənaye istehsalında 4,4 faiz, qeyri-neft sənayesində isə 15,6 faizlik artıma nail olunub.

Cari ilin yanvar-mart aylarında qeyri-neft sənayesində daha çox artım avtomobil, qoşqu və yarımqoşquların istehsalı (85,6 faiz), içki istehsalı (78,8 faiz), toxuculuq sənayesi (61,4 faiz), mebellərin istehsalı (58,7 faiz), rezin və plastik kütlə məmulatlarının istehsalı (59,3 faiz), kağız və karton istehsalı (34,6 faiz), kimya sənayesi (32,6 faiz), qida məhsullarının istehsalı (26,8 faiz), maşın və avadanlıqların istehsalı (13,2 faiz), tikinti materiallarının istehsalı (8,5 faiz) və s. sahələrdə müşahidə olunub. Sənayeləşmə siyasətinin uğurla həyata keçirilməsi, yeni sənaye müəssisələrinin yaradılması əhalinin məşğulluğunun artırılmasına, həyat səviyyəsinin yüksəlməsinə mühüm töhfə verir. Qeyd edim ki, 2019-cu ilin yanvar-mart aylarında ölkənin sənaye sahələrində çalışan işçilərin sayı 204 min nəfərdən çox, orta aylıq əməkhaqqı isə 1037 manat təşkil edib.

**–Qabaqcıl texnologiyalara əsaslanan rəqabətqabiliyyətli və innovativ sənaye sahələrinin yaradılmasında, qeyri-neft sənayesinin mütərəqqi üsullarla inkişafında dövlətin dəstək modelləri olan sənaye parkları və məhəllələrinin rolunu necə xarakterizə edərdiniz?**

–Dövlətimizin başçısının sənayeləşmə siyasətinə uyğun olaraq, ölkədə yeni sənaye müəssisələri açılır, mövcud müəssisələrin istehsal gücü artırılır, hazırda bir sıra sənaye obyektlərinin tikintisi davam etdirilir. Bir daha qeyd edim ki, sənayenin inkişafında yeni mexanizm kimi sənaye parklarının yaradılmasının böyük əhəmiyyəti vardır. Artıq Azərbaycanda 5 sənaye parkı fəaliyyət göstərir. Bunlar Sumqayıt Kimya, Balaxanı, Mingəçevir, Qaradağ və Pirallahı sənaye parklarıdır.

İndiyədək sənaye parklarında 40-dan çox rezident qeydiyyata alınıb. Bu rezidentlərin 23-ü artıq istehsal fəaliyyətinə başlayıb. Bu il daha 8 rezident istehsala başlayacaq.

Sənaye parklarında rezidentlər üçün vergi və gömrük sahəsində stimullaşdırıcı tədbirlər tətbiq edilir. Belə ki, sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən 7 il müddətinə əmlak, torpaq, gəlir və ya mənfəət vergilərindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və gömrük rüsumlarından azad olunurlar. Hazırda bu güzəştlərin səmərəliliyinin daha da artırılması istiqamətində təkliflər hazırlanır.

Bundan başqa, sənaye parklarında dövlət vəsaitləri hesabına müasir infrastruktur yaradılır, sahibkarların vəsaitlərini investisiya qoyuluşuna yönəltmələri təmin edilir.

İndiyədək sənaye parklarına 3,3 milyard dollar həcmində investisiya qoyulub. Təkcə 2018-ci ildə rezidentlər tərəfindən 451 milyon dollar sərmayə yatırılıb. Sənaye parklarında 9 minə yaxın daimi iş yeri yaradılıb. Növbəti mərhələdə 400 milyon dolladək sərmayə qoyuluşu, 1600-dən artıq iş yerinin açılması nəzərdə tutulur.

Qeyd edim ki, indiyədək sənaye parklarında 1,36 milyard manat dəyərində məhsul istehsal edilib ki, bunun 250 milyon manatlıq hissəsi ixrac olunub.

Bununla yanaşı, Azərbaycan Respublikası Prezidentinin "Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında" 2014-cü il 8 oktyabr tarixli Fərmanı ilə müəyyən edilmiş vəzifələrin icrası olaraq ölkədə sənaye məhəllələrinin yaradılması davamlı prosesə çevrilib. Sənaye məhəllələri istehsal prosesinin təşkilində infrastruktur xərclərinin azaldılması, kooperasiya əlaqələrinin gücləndirilməsi, kiçik və orta sahibkarlığın inkişafı üçün əlverişli iqtisadi modeldir.

Sənaye məhəllələrinin fəaliyyətinin təşkili və tənzimlənməsi dövlətimizin başçısı tərəfindən "Azərbaycan İnvestisiya Şirkəti" ASC-yə tapşırılıb. Artıq dövlət tərəfindən sahibkarlar üçün bütün zəruri infrastruktur yaradılmış Neftçala və Masallı sənaye məhəllələri fəaliyyət göstərir, Hacıqabul Sənaye Məhəlləsində işlər yekunlaşıb və sahibkarlar istehsalın qurulmasına başlayıblar, Sabirabad Sənaye Məhəlləsində isə son tamamlama işləri aparılır. Fəaliyyətdə olan sənaye məhəllələrində indiyədək 33 milyon manatlıq məhsul istehsal edilib.

Qeyd edilən sənaye məhəllələrində qeydiyyatdan keçmiş iştirakçıların sayı 36 olmaqla ümumilikdə, 140 milyon manata yaxın investisiya yatırılması, 2 minədək iş yerinin yaradılması nəzərdə tutulur. Bu müəssisələrin 21-i artıq istehsal fəaliyyətinə başlayıb. Bu il daha 15 müəssisə fəaliyyətə başlayacaq.

Dövlətimizin başçısının tapşırığına uyğun olaraq, ölkənin digər regionlarında da sənaye parkları və məhəllələrinin yaradılması işləri davam etdirilir.

**–Azərbaycanda yeni sənaye sahələrinin yaradılması müasir dövrün çağırışlarına uyğun inkişaf baxımından nələr vəd edir?**

–Vurğulayım ki, Azərbaycan sənayesi həm texnoloji, həm də innovativ baxımdan inkişaf edir. Hazırda ölkəmiz dünya kosmik klubunun üzvüdür və kosmik sənayedə öz mövqelərini möhkəmləndirir. Artıq Azərbaycanın orbitə 3 peyki çıxarılıb və peyklərin fəaliyyəti nəticəsində ölkəmizə valyuta gəlir.

Yeni sənaye sahələrindən olan hərbi sənayemiz ildən-ilə güclənir. Müdafiə sənayemiz Silahlı Qüvvələrimizi silah-sursat, texnika və s. vasitələrlə təmin etməklə yanaşı, xarici ölkələrə də məhsul ixrac edir. Bu məhsullar beynəlxalq sərgilərdə nümayiş olunur və böyük maraqla qarşılanır.

Başqa bir sahə kimi, avtomobil istehsalını göstərmək olar. Azərbaycanda minik və yük avtomobillərinin istehsalı ildən-ilə artır. Təkcə Neftçala Sənaye Məhəlləsində 2018-ci ilin martından fəaliyyət göstərən "Xəzər" avtomobil zavodunda 1600-dən çox minik avtomobili istehsal olunub və böyük əksəriyyəti artıq satılıb. Müəssisə daha 400-ə yaxın avtomobil üçün sifariş qəbul edib.

Sənayenin inkişafı alt sahələrin, eləcə də kiçik və orta biznesin imkanlarını daha da genişləndirir. Buna misal olaraq, Azərbaycanda kimya sənayesinin inkişafı məqsədilə ötən il Sumqayıt Kimya Sənaye Parkında istismara verilən "SOCAR Polymer" MMC-ni qeyd etmək olar. Belə ki, "SOCAR Polymer" layihəsi çərçivəsində tikilən zavodlarda müxtəlif növ polipropilen və yüksəksıxlıqlı polietilen məhsulları istehsal olunur. Bu məhsullar xarici ölkələrə ixrac edilməklə yanaşı, həm də bir çox kiçik və orta müəssisələr üçün xammaldır.

**–Azərbaycanda ixracyönümlü istehsal sahələrinin inkişafı və qeyri-neft ixracının artırılması sahəsində görülmüş işlər barədə məlumat verərdiniz.**

–Qeyd etdiyim kimi, ölkədə qeyri-neft sektorunun şaxələndirilməsi, qeyri-neft sənayesinin inkişafı, Azərbaycan məhsullarının ixrac coğrafiyasının genişləndirilməsi məqsədilə intensiv tədbirlər həyata keçirilir, xarici ölkələrə ardıcıl olaraq ixrac missiyaları təşkil edilir, nüfuzlu beynəlxalq sərgilərdə Azərbaycan şirkətlərinin iştirakı təmin olunur. Qeyri-neft ixracının stimullaşdırılması, "Made in Azerbaijan" brendinin təşviqi məqsədilə indiyədək xarici ölkələrə 29 ixrac missiyası, o cümlədən bu ilin əvvəlindən 4 xarici ölkəyə (Çin, Polşa, Latviya, Qətər) 5 ixrac missiyası həyata keçirilib. Azərbaycan məhsulları indiyədək 24 beynəlxalq sərgidə nümayiş olunub. Bu tədbirlər çərçivəsində Azərbaycan məhsullarının ixracına dair razılaşmalar və sifarişlər əldə edilir, müqavilələr imzalanır.

Bundan başqa, "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqi məqsədilə həyata keçirilən səmərəli tədbirlərdən biri də xarici ölkələrdə Azərbaycan ticarət və şərab evlərinin yaradılmasıdır. Dövlətimizin başçısının tapşırığına uyğun olaraq, 2017-ci ildə Belarusda, 2018-ci ildə Ukrayna, Latviya, Polşa və Çində, bu ilin yanvar ayında isə Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində Azərbaycan ticarət evləri açılıb. Bu ticarət evlərinin hər birində müxtəlif növ Azərbaycan məhsullarının daimi sərgisi fəaliyyət göstərir. Çinin Urumçi və Şanxay şəhərlərində Azərbaycan şərab evləri uğurla fəaliyyət göstərir.

Eyni zamanda, Rusiya Federasiyası, Çin Xalq Respublikası, Birləşmiş Ərəb Əmirlikləri və Mərkəzi Avropa ölkələri üzrə Azərbaycanın ticarət nümayəndələri fəaliyyət göstərir ki, bu da ölkəmizin qeyri-neft ixracının genişləndirilməsi, "Made in Azerbaijan" brendinin, əlverişli biznes və investisiya mühitinin təşviqi, investisiyaların cəlb olunması baxımından yeni institusional yanaşmadır.

Kənd təsərrüfatı və emalı məhsullarına ixracla bağlı geri ödəmə mexanizminin tətbiq olunması da ölkədə istehsal olunan qeyri-neft məhsullarının ixracının stimullaşdırılmasında mühüm rol oynayır. Qeyd edim ki, indiyədək 13 milyon manata yaxın ixrac təşviqi ödənilib.

Həyata keçirilən tədbirlər nəticəsində ölkəmizin xarici ticarət tərəfdaşlarının sayı və qeyri-neft ixracı davamlı olaraq artır. Belə ki, 2003-2018-ci illərdə Azərbaycanın xarici ticarət tərəfdaşlarının sayı 1,4 dəfə, ixrac 7,5 dəfə, o cümlədən qeyri-neft ixracı 4,5 dəfə, ixrac məhsullarının çeşidi 2,5 dəfə artıb.

Ümumiyyətlə, Azərbaycan iqtisadiyyatı dünyanın ən yeni texnologiyalarının, müsbət təcrübələrinin səmərəli tətbiqinə qadirdir və bu proses uğurla davam etdirilir. Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bu mühüm məsələyə xüsusi diqqət yetirdiyini bəyan etdi: "Biz dünyanın ən mütərəqqi təcrübəsini Azərbaycana gətirməliyik, tətbiq etməliyik və nəticə etibarilə daha da uğurlu inkişaf modeli ortaya qoymalıyıq".

Sənayedə texnoloji yeniliklərin, yeni model və yanaşmaların tətbiqi, müasir çağırışlara cavab verən digər innovativ tədbirlər isə iqtisadiyyatın bu mühüm sahəsinin inklüziv inkişafında mühüm amillər olmaqla, ölkənin iqtisadi imkanlarının artmasına, daha da qüdrətlənməsinə, nəticə etibarilə əhalinin sosial rifahına, dövlət siyasətinin mərkəzində dayanan Azərbaycan vətəndaşına xidmət edir.

**AZƏRTAC**

*Dueyn Alan Voy:*

# Azərbaycan Prezidenti ölkədə kənd təsərrüfatının daha məhsuldar olmasını istəyir və buna çalışır

*Aqrar sahədə amerikalı və azərbaycanlı ekspertlər arasında fikir mübadiləsi və mütərəqqi təcrübənin öyrənilməsi məqsədi daşıyan mübadilə layihəsi çərçivəsində ABŞ Kənd Təsərrüfatı Departamentinin Risklərin İdarə Olunması Agentliyinin regional direktoru Dueyn Alan Voy 2019-cu il may ayının 12-24-dək Azərbaycanda səfərdə olub. O, ölkəmizdə keçirdiyi görüşlər, müzakirə olunan mövzular, Azərbaycanla ABŞ arasında aqrar sahədə əməkdaşlığın perspektivləri və digər məsələlər barədə AZƏRTAC-ın suallarını cavablandırıb. Müsahibəni təqdim edirik.*

**- Cənab Voy, əvvəlcə Azərbaycana səfərinizin məqsədləri barədə bir qədər ətraflı məlumat verməyinizi xahiş edirik.**

- 2014-cü ildə Bakıda peşəkar ixtisasartırma proqramında iştirak etmişəm və bu, mənim Azərbaycana ikinci səfərimdir. İlk səfərimdə kənd təsərrüfatı sahəsində sığorta və banklarla bağlı çıxışlarım olub. Bilirəm ki, indi sizin parlamentdə də ABŞ-ın kənd təsərrüfatı məhsullarının sığortası ilə bağlı proqramına oxşar layihə müzakirə olunmaqdadır.

Mənim bu səfər zamanı Azərbaycan Respublikası Prezidentinin aqrar siyasət məsələləri üzrə köməkçisi Azər Əmiraslanovla və kənd təsərrüfatı naziri İnam Kərimovla görüşlərim olub. ABŞ səfirliyinin məsul əməkdaşı cənab Kris Van Tasel ilə birgə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasını ziyarət etmişik. Mənə məlumdur ki, Azərbaycan Prezidenti ölkədə kənd təsərrüfatının daha məhsuldar olmasını, xalqın ərzaq təhlükəsizliyinin təmin edilməsini istəyir və buna çalışır.

Beləliklə mən həm də bölgələrə, Gəncə şəhərinə səfər etdim və orada aqrar universitetlə, tədqiqat müəssisələri, laboratoriyalar, bəzi kənd təsərrüfatı məhsullarının yetişdirilməsi və istehsalı prosesi ilə tanış oldum. Gəncədə olarkən tələbələrlə ABŞ-da kənd təsərrüfatı məhsulların sığortası ilə bağlı istifadə etdiyimiz bəzi üsullar barədə müzakirələr apardıq. Mən fermerlərin yeni avadanlıqlar almaları və öz istehsallarına sərmayə qoymaları üçün banklardan kreditlər əldə etmələrinə, bununla da gələcək illərdə də öz təsərrüfatlarının davamlılığını təmin etmələrinə çalışmışam. Azərbaycan ölkədə kənd təsərrüfatını daha da inkişaf etdirmək üçün öz fəaliyyətini bu istiqamətdə qurub.

**- Səfər çərçivəsində daha hansı görüşlər keçirdiniz, nə kimi məsələləri müzakirə etdiniz?**

- Mənim, həmçinin ABŞ səfiri ilə də görüşmək imkanım oldu və kənd təsərrüfatı sahəsində istifadə olunan bütün texnologiyaları görə bildim. Mən hətta İsmayıllı rayonunda da oldum və orada bəzi fermerlərlə söhbət etdim, üzüm və şərab, həmçinin süd məhsullarının istehsalı ilə tanış ola bildim.

Azərbaycanda aqrar sektorun inkişafı üçün böyük potensial var və hazırda kənd təsərrüfatı məhsulları istehsalı çox yaxşı səviyyədədir. Ancaq bu sahəni daha da inkişaf etdirmək, eləcə də nəinki Azərbaycan əhalisini ərzaqla təmin etmək, hətta istehsal olunan məhsulları ixrac etmək üçün potensial mövcuddur.

**- Azərbaycanda aqrar sektorda həyata keçirilən islahatları necə qiymətləndirirsiniz?**

- Düşünürəm ki, Azərbaycan hökuməti tərəfindən həyata keçirilən yeni islahatlar ölkənin kənd təsərrüfatının inkişaf etməsinə, ərzaq təhlükəsizliyinin təmin olunmasına və ixrac potensialının artmasına təkan verəcək. Bu da öz növbəsində Azərbaycan xalqının rifahının daha da yüksəlməsinə xidmət edəcək.

Qeyd etdiyim kimi, Azərbaycanda dörd il əvvəl olmuşam və ölkənizdə müsbət irəliləyişlərin şəxsən şahidiyəm. Mən aqroparklara və süd məhsulları istehsal edən zavodlara baş çəkmişəm və buradakı məhsulların Amerikada istehsal olunan məhsullara oxşarlıq təşkil etdiyini görmüşəm. Burada müasir investisiya sisteminin, yüksək keyfiyyətli qurğuların, keyfiyyətli istehsal prosesinin və çox müasir süd sağımı maşınlarının və baytarlıq üsulları mövcud olması barədə məlumatım var. Budəfəki səfərim zamanı kənd təsərrüfatının inkişafında, xüsusilə də ərzaq satışı və marketinqi sahəsində irəliləyişlərə nail olunduğunu gördüm. Şübhəsiz ki, bu irəliləyiş islahatlar sayəsində baş verir.

Sizin çox dadlı, keyfiyyətli yeməkləriniz və ekoloji təmiz, orqanik ərzaqlarınız var. Düşünürəm ki, insanların bir çox ölkələrdə bu qidanı sevdiyini nəzərə alsaq, Azərbaycan bu məhsulları digər ölkələrə ixrac edə bilər.

**- Azərbaycanla ABŞ arasında kənd təsərrüfatı sahəsində əməkdaşlığın perspektivləri barədə nə deyə bilərsiniz?**

- ABŞ-ın Azərbaycandakı səfirliyində keçirdiyim görüşlərdə onların mənim burada iştirak etdiyim kimi proqramların bir parçası olmaqda maraqlı olduqlarını öyrəndim. Bu proqramlar sayəsində mütəxəssislər qarşılıqlı səfərlər edir, məlumat alır və təcrübə mübadiləsi aparırlar.

Gəncə Aqrar universitetinin beynəlxalq yay proqramı var, burada xarici tələbələr kənd təsərrüfatına dair biliklər alır. Bu, Caspian Agro-da gördüyümüz kimi, yalnız məhsul mübadiləsi deyil, həm də məlumat mübadiləsidir ki, bunun çox faydası var. Mən Gəncədə olarkən kartofların üzərində bizim Kolorado böcəkləri adlandırdığımız böcəklərdən gördüm. Mən bunu bilmirdim. Biz bu həşəratların kartof istehsalına zərər verməməsi üçün onları nəzarətdə saxlamağın fərqli yollarından danışdıq ki. Bu cür fikir mübadiləsi hər iki ölkəyə faydalı ola bilər. Düşünürəm ki, gələcəkdə daha çox fikir mübadiləsi baş verəcək. Bilirəm ki, səfirlik bu cür əməkdaşlığı, mübadiləni dəstəkləyir. Buraya bir daha beş ildən sonra yox, məsələn, iki və ya üç il sonra gəlmək istəyərdim.

**- Bakıda kənd təsərrüfatı forumu oldu. Sizcə, bizim aqrar sahədə daha geniş əməkdaşlığımız, ABŞ-dan aqrar sahə üzrə sahibkarların cəlb edilməsi imkanları nə dərəcədə realdır?**

- Artıq bu istiqamətdə addımlar atılır. Bildiyimə görə, Azərbaycanın Kənd Təsərrüfatı naziri İnam Kərimov aprel ayında ABŞ-ın İllinoys ştatını ziyarət edib, istehsal prosesi və istehsal obyektləri ilə tanış olub. Azərbaycanlı nazirin artıq bu payızda Oklahomaya və digər ştatlara gəlməsi, biznesmenlərlə danışıqlar aparması, aqrar universitetlər arasında əlaqə yaratması planlaşdırılır. İnam Kərimov, həmçinin ABŞ-la Azərbaycan arasında aqrar sahədə mümkün əməkdaşlıq istiqamətləri, texnologiyanın, metodların və fikirlərin mübadiləsi ilə maraqlanacaq.

**AZƏRTAC**

# Bakıda 26-cı Beynəlxalq “Xəzər Neft və Qaz” konfransı keçirilir






**Mayın 30-da Bakıda 26-cı Beynəlxalq “Xəzər Neft və Qaz” konfransı işə başlayıb.**

AZƏRTAC xəbər verir ki, konfransdakı çıxışında Energetika naziri Pərviz Şahbazov ümummilli lider Heydər Əliyevin neft strategiyasının başlanğıcı ilə eyni vaxta təsadüf edən “Xəzər Neft və Qaz” sərgi-konfransının neft sənayemizin yeni mərhələdə inkişafına dünyanın diqqətini cəlb edən birinci tədbir kimi mühüm rol oynadığını bildirib. Deyib ki, 26 il əvvəl Azərbaycan bu sərgi-konfransla öz enerji potensialını dünyaya tanıtmağa çalışırdısa, bu gün strateji tərəfdaşlığın, beynəlxalq inteqrasiyanın və enerji təhlükəsizliyinin etibarlı təminatçısı missiyasını təqdim edir.

Nazir dünya enerji bazarında cərəyan edən proseslərə toxunaraq ölkənin enerji sektorunun yeni çağırışlara uyğun inkişafından da danışıb. Bildirib ki, 2014-cü ilin ikinci yarısından bu günə qədər neft bazarında qeyri-sabitlik müşahidə olunur. “OPEC plüş” formatında bazarda dəyişən vəziyyətə uyğun çevik tənzimləmə tədbirlərinə baxmayaraq, qeyri-sabitlik hələ də qalmaqdadır. Hazırda neftin 70 ABŞ dollar/barrel ətrafında qərarlaşan qiyməti qənaətbəxşdir.

“Bununla belə, həm istehsalçılar, həm də istehlakçıların maraqlarına uyğun qiymət sabitliyinin və bu məqsədlə tələb-təklif balansının qorunub saxlanılması ehtiyatlı düşünülmüş addımlar atılmasını zəruri edir. Mövcud iqtisadi və siyasi amillərin təhlili də göstərir ki, hazırda tələb-təklif tarazlığı üçün başlıca meyar kommersiya meyarıdır. Belə ki, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ölkələrində neft ehtiyatları son 5 ilin orta göstəricilərindən çoxdur. Həmçinin təşkilatdan kənar ölkələr, o cümlədən ABŞ son illər şist nefti hesabına əldə etdiyi hasilat göstəriciləri ilə ənənəvi neft hasilatçılarını geridə qoyub. Buna görə də, “OPEC plus” çərçivəsində əldə edilmiş razılığın bu ilin aprelində 168 faiz yerinə yetirilməsi, üstəlik razılaşmadan kənarda qalan bir sıra OPEC ölkələrində hasilatın azalması, qlobal neft bazarında ticarət məhdudiyyətlərinə və geosiyasi qeyri-sabitliyə baxmayaraq, neft tədarükündə çatışmazlıq və bundan irəli gələn yüksək qiymət dəyişikliyi müşahidə olunmur”, - deyə nazir qeyd edib.

P.Şahbazovun sözlərinə görə, razılaşma çərçivəsində hasilatda gündəlik təxminən 2 milyon barrellik azalma, bazardakı artıq təklifi tam kompensasiya edə bilməyib: “Buna görə də, hazırda “OPEC plus” ölkələri qarşısında duran prioritet məsələ kommersiya neft ehtiyatlarını müvafiq səviyyəyə çatdırmaqdır. Bu, qlobal tələbatla bağlı müşahidə olunan risklərdən sığortalanmaq üçün də əhəmiyyətlidir”.

Nazir, həmçinin deyib ki, ötən il neftin qlobal istehlakında artım 1,4 faiz olsa da, bu il dünyada neftə gündəlik tələbatın 1,2 milyon barrelə qədər azalacağı proqnozlaşdırılır: “Ötən il dünyada enerjiyə tələbatın son illərdə ən yüksək səviyyədə olmasına baxmayaraq, Avropada enerjiyə tələbat xüsusilə də bərpaolunan enerjidən istifadənin genişlənməsi və enerji səmərəliliyi nəticəsində azalıb. 2050-ci ilədək neft və qazın ümumi idxalındakı nisbəti 55 faizdən 20 faizə düşəcək. Hazırda ABŞ və Çin arasındakı ticarət mübahisələri də qlobal iqtisadi inkişafa təsir edir və neftə tələbatı azaldan amil kimi nəzərdən keçirilir. Bütün bunlar isə göstərir ki, bazarda qiymətlərin sabitliyi üçün hasilat vasitəsilə tənzimləmə əsas nailiyyətdir”.

O bildirib ki, ötən 23 ildə ölkə iqtisadiyyatına 263 milyard dollar investisiya yatırılıb. Bu vəsaitin 100,6 milyard dolları məhz neft sektoruna yönəldilib: “Bu yaxınlarda 6 milyard dollarlıq “Azəri-Mərkəzi-Şərqi” layihəsinin təsdiqlənməsi ilə indiyədək təxminən 485 milyon ton neft və 158 milyard kubmetr qaz hasil olunan və 36 milyard dollardan çox sərmayə qoyulan “Azəri-Çıraq-Günəşli” yataqlar blokunun işlənməsində ikinci mərhələyə başlanılıb”.

Energetika naziri, həmçinin XXI əsrdə qazın enerji resursu kimi ön plana çıxmasının mənbə və marşrutların şaxələndirilməsi və enerji təhlükəsizliyi kimi məsələlərin də əhəmiyyətini artırdığını deyib və bu kontekstdə Cənub Qaz Dəhlizinin əhəmiyyətindən danışıb. Onun sözlərinə görə, Cənub Qaz Dəhlizi ilə bağlı görülmüş işlər artıq öz nəticələrini verir: “TANAP-la indiyə kimi Türkiyəyə 1,8 milyard kubmetr Azərbaycan qazı nəql olunub. “Şahdəniz” yatağından qaz hasilatının cari ildə ötən müqayisədə 6 milyard kubmetr, 2020-ci ildə isə 2018-ci ilə görə 8,5 milyard kubmetr artacağı, beləliklə də 2020-ci ildə ölkədə ümumi qaz istehsalının 40 milyard kubmetri ötəcəyi gözlənilir”.

SOCAR-ın prezidenti Rövnəq Abdullayev artıq ənənəvi olaraq, 26-cı dəfə keçirilən konfransın Azərbaycanın regionlararası energetika layihələrinin həyata keçirilməsi istiqamətində apardığı birgə fəaliyyətlər üçün effektiv kommunikasiya platforması olduğunu deyib. Bildirib ki, aparıcı beynəlxalq şirkətlərlə olan işgüzar əlaqələr hər il daha yeni səviyyəyə qalxır: “Əminəm ki, builki konfrans da gələcək layihə və işlərin planlaşdırılması baxımından faydalı olacaq”

R.Abdullayev qeyd edib ki, Azərbaycan xalqı ölkəmizin tarixində mühüm strateji rol oynamış “Əsrin müqaviləsi”nin imzalanmasının 25-ci ildönümünü qeyd edəcək: “Dövlət müstəqilliyimizin ilk illərində, olduqca ağır geosiyasi şəraitdə Azərbaycanın ümummilli lideri Heydər Əliyevin gərgin səyləri nəticəsində imzalanmış bu müqavilə Xəzər dənizi hövzəsində beynəlxalq əməkdaşlıq üçün əlverişli zəmin yaradıb, regionun enerji xəritəsini əhəmiyyətli dərəcədə dəyişib. Müqavilə çərçivəsində Xəzərin Azərbaycan sektorundakı dərinsulu yataqların işlənilməsi üçün ölkəyə zəruri texnologiyalar, müasir istehsalat üsulları cəlb edilib, kəşfiyyat, hasilat, qazma, neft-qaz emalı və kimyası, informasiya texnologiyaları, insan resursları - bir sözlə, bütün sahələr üzrə innovativ metodlar tətbiq edilib.

“1994-cü ilin sentyabrında həmin kontraktın imzalanması bu gün müstəqil Azərbaycanın inkişafını böyük dərəcədə təmin edib. Bu kontraktdan əldə edilən gəlirlər ölkəmizin bütün sahələrində özünü büruzə verir. Ölkə sənayesi müasir tələblər səviyyəsində modernizə edilib, yeni istehsalat sahələri və iş yerləri yaradılıb, qeyri-neft sektoru gücləndirilib. Zəngin tarixə malik neft-qaz sənayemiz öz inkişafının yeni, daha yüksək mərhələsinə qədəm qoyub. Nəticədə, bu gün həyata keçirdiyimiz regional və qlobal birgə layihələrdə bütün istehsalat, inşaat və quraşdırma işləri ölkə daxilində, SOCAR və digər yerli müəssisələr tərəfindən icra olunur”, - deyə SOCAR-ın prezidenti vurğulayıb.

“Azəri-Çıraq-Günəşli”nin dünya səviyyəli nəhəng yataqlar bloku olduğunu deyən R.Abdullayev bildirib: “25 il əvvəl onun ehtiyatları 500 milyon ton civarında təxmin edilirdisə, bu gün həmin həcm çıxarıldıqdan sonra yataqda ən azı bir o qədər də karbohidrogen ehtiyatlarının qaldığı məlumdur. Layihənin bütün tərəfdaşları bu yatağın işlənməsində iştiraklarından məmnundur və onun böyük gələcəyi olduğuna inanırlar. Biz bu inamımızı hələ “Əsrin müqaviləsi” yekunlaşmadan, 2017-ci ilin sentyabrında “AÇG”nin 2049-cu ilin sonuna qədər birgə işlənməsinə dair yeni sazişin imzalanması ilə bir daha təsdiq etmişik. Bu yeni investisiya sazişi xarici tərəfdaşlarımızın Azərbaycana göstərdikləri yüksək etimadın təzahürüdür. Həm investor, həm də kontraktor şirkətləri ilə əməkdaşlığımız sağlam təməllər, qarşılıqlı faydalı maraqlar üzərində qurulub və əminəm ki, hələ uzun illər davamlı inkişaf edəcək”.

SOCAR-ın prezidenti qeyd edib ki, beynəlxalq aləmdə Avropanın ən böyük enerji və infrastruktur layihəsi kimi diqqət mərkəzində olan Cənub Qaz Dəhlizi çərçivəsində qazanılan uğurlar bunun daha bir təzahürüdür: “Ötən il biz Azərbaycanın təşəbbüsü və liderliyi ilə iki qitədə və bir neçə ölkədə həyata keçirilən bu möhtəşəm meqalayihənin 4 seqmentindən 3-nü - “Şahdəniz-2”, Cənub Qafqaz Kəmərinin genişləndirilməsini və TANAP layihəsinin birinci hissəsini uğurla başa çatdırdıq. Artıq təbii qazın Xəzər dənizindən Avropaya nəql olunmasının bir addımlığındayıq. İnanırıq ki, Azərbaycan perspektivli Avropa qaz bazarında artan tələbatla mövcud təchizat arasında yaxın illərdə yaranacaq boşluğun aradan qaldırılmasına öz töhfəsini verəcək və bütün hazırkı qaz təchizatçıları ilə bərabər bu bazarda özünə layiqli yer tutacaq”.

Onun sözlərinə görə, ilkin mərhələdə Cənub Qaz Dəhlizinin resurs mənbəyini dünyanın ən böyük qaz-kondensat yataqlarından biri olan “Şahdəniz” yatağından çıxarılacaq qaz həcmləri təşkil edəcək. Lakin dəhlizin layihələndirilməsi zamanı Xəzərin Azərbaycan sektorunun qaz-kondensat ehtiyatları ilə zəngin olması, böyük imkanların mövcudluğu da nəzərə alınıb. Bu imkanları reallaşdırmaq məqsədilə yeni yataq və sahələrdə xarici tərəfdaşlarla birgə işləri məqsədyönlü şəkildə davam etdiririk.

SOCAR-ın prezidenti karbohidrogen ehtiyatları 350 milyard kubmetr qaz, 45 milyon ton kondensat həcmində qiymətləndirilən “Abşeron” yatağı üzrə görülən işlərdən, “Qarabağ” yatağının neft və qaz ehtiyatları ilə bağlı gözləntilərdən söhbət açıb. Deyib ki, “Abşeron” və “Qarabağ” yataqlarından ilk məhsulun 2021-2022-ci illərdə əldə olunması gözlənilir: “Ümid” yatağında ikinci özülün inşası, “Babək” strukturunun kəşfiyyat işlərinə başlanılması və müvafiq infrastrukturun tikintisi planlaşdırılmış layihə proqramı üzrə davam etdirilir. Növbəti mərhələdə “Əşrəfi”, “Dan ulduzu”, “Aypara”, “Şəfəq-Asiman” və Abşeron yarımadası ətrafında dayaz sulu sahələrdə də axtarış-qazma işlərinə başlanması nəzərdə tutulur.

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz isə deyib ki, BP 27 ildir Xəzər regionundadır: “Bu müddət ərzində biz maraqlı tərəflər və tərəfdaşlarımız ilə sıx əməkdaşlıq edərək həqiqətən də dünya səviyyəli hesab etdiyimiz bu layihələri uğurla reallaşdırmışıq. Bu il həmin layihələrdən biri olan AÇG layihəsinin 25 illiyidir. Ötən 25 il ərzində biz Azərbaycan hökuməti, SOCAR və tərəfdaşlarımızla birgə işləyərək dünyada dövlət sektoru ilə özəl sektoru birləşdirən ən uğurlu biznes tərəfdaşlıqlarından birini qurmuşuq. AÇG tərəfdaşları bu yaxınlarda “Azəri-Mərkəzi-Şərqi” layihəsinə sanksiya verib. Bu, gündəlik 100 min barrelədək neft hasil etmək üçün layihələndirilmiş yeni dəniz platforması və qurğularını özündə cəmləşdirən 6 milyard dollar dəyərində olan işlənmə layihəsidir. Layihə çərçivəsində ilk hasilatın 2023-cü ildə əldə ediləcəyi və yatağın istismar müddəti ərzində 300 milyon barelədək neft hasil olunacağı gözlənilir”.

O, Azərbaycan təbii qazının “Şahdəniz-2” layihəsi, bu layihə çərçivəsində Azərbaycanda və Gürcüstanda genişləndirilmiş Cənubi Qafqaz Boru Kəməri və Türkiyədə TANAP boru kəməri vasitəsilə regional bazarlara nəql edildiyini deyib. Bildirib ki, növbəti il Avropaya ilk qazın nəql edilməsi üçün TAP boru kəmərində işlər qrafikə uyğun şəkildə yekunlaşmağa doğru yaxınlaşır”.

“Cari ildə “Şəfəq-Asiman” üzrə birinci kəşfiyyat qazma işlərinin başlanacağını gözləyirik. “Şəfəq-Asiman” böyük qaz və kondensat perspektiv strukturudur. Hesab edirik ki, buradakı nəticələr uğurlu olarsa, o, miqyasına görə “Şahdəniz” yatağı qədər ola bilər. Bundan başqa, neftin əlverişli zonada yerləşdiyi Abşeron yarımadasının dayazsulu sahəsi mövcuddur. Bu ərazidə biz seysmik tədqiqat işlərini artıq başa çatdırmışıq və növbəti iki ildə seçilmiş 3 perspektiv sahədə üç kəşfiyyat quyusu qazmağı planlaşdırırıq. D230 bloku bizim üçün Xəzər dənizində digər bir kəşfiyyat sahəsidir. Bu blok AÇG yatağının şimalında yerləşən böyük və əlverişli neft imkanı təmin edir. Bu il həmin sahədə kəşfiyyat aparılmalı potensial strukturları müəyyənləşdirmək üçün seysmik tədqiqat aparmağı planlaşdırırıq və tədqiqatın nəticələri uğurlu olarsa, tez bir zamanda, yəni növbəti il artıq quyunun qazılması nəzərdə tutulur. İnanırıq ki, bu sahə AÇG yatağının işlənməsindən bu vaxtadək Azərbaycanda ən böyük neft işlənməsi ola bilər. “Şahdəniz” yatağının dərin perspektiv strukturlarını qiymətləndirmək üçün növbəti il bir sıra kəşfiyyat işləri planlaşdırırıq. Bu, mövcud işlənilən Şahdəniz yatağının altında yerləşən əlverişli qaz perspektiv strukturudur. Oradakı ehtiyatların potensialı trilyonlarla kubfut həcmindədir və 2020-ci ildə burada qazma işlərinə başlanılması planlaşdırılır. Beləliklə, bu, qaz üzrə daha çox variantlar yarada bilər, xüsusən də dünya səviyyəli Cənub Qaz Dəhlizi infrastrukturunun hazır olduğu bir dövrdə”, - deyə Q.Counz qeyd edib.

Konfransın ilk günündə İranın Neft nazirinin beynəlxalq məsələlər üzrə müavini Əmirhüseyn Zamaninin, Qaz İxrac Edən Ölkələrin Forumunun (GECF) baş katibi Yuriy Sentyurinin, “JOGMEC”in prezidenti Tomonobu Uçidanın, eləcə də “Nobel Upstream” şirkətinin icraçı direktoru Lari Beyts, SOCAR-ın vitse-prezidentlərinin çıxışları dinlənilib.

Neft-qaz sektorunun, eləcə də bu sektor ilə əlaqəli müxtəlif sahələrin rəhbərləri üçün də əsas platforma olan 2 günlük konfransda 30 ölkədən 600-dən çox nümayəndə iştirak edir.

**AZƏRTAC**

# Bakıda “Monex Summit” keçirilir






**Mayın 30-da “İnnovasiya Festivalı” çərçivəsində Bakıda “Monex Summit” işə başlayıb.**

Sammitin media tərəfdaşı AZƏRTAC xəbər verir ki, tədbir Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Heydər Əliyev Mərkəzi, Maliyyə Bazarlarına Nəzarət Palatası və Mərkəzi Bankın rəsmi dəstəyi, Azərbaycanda Amerika Ticarət Palatası (AmCham) və “FA İnternational Trade Events” şirkətinin birgə təşkilatçılığı ilə keçirilir.

Tədbiri giriş sözü ilə açan Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə maliyyə-bank sisteminin rəqəmli transformasiyasında kibertəhlükəsizliyin mühüm rol oynadığını bildirib: “Azərbaycanda kibertəhlükəsizlik sahəsində ciddi addımlar atılır. Kibertəhlükəsizliyə cavabdeh qurumlar yaradılıb, informasiya təhlükəsizliyi üzrə standartlar qəbul olunub. Hazırda isə kibertəhlükəsizlik üzrə Milli Strategiyanın qəbul olunması istiqamətində işlər aparılır”.

Nazirliyin maliyyə texnologiyalarının inkişafında maraqlı olduğunu qeyd edən R.Quluzadə bu istiqamətdə irəli sürülən təşəbbüslərə dəstək verdiklərini deyib: “Artıq ölkəmizdə nazirliyin dəstəyi ilə blokçeynlə bağlı bir sıra tədbirlər keçirilib. Bu yaxınlarda nazirliyin təşkilatçılığı ilə böyük bir “FinTech” Forumu keçirildi. Forum çərçivəsində Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Mərkəzi Bank, Maliyyə Bazarlarına Nəzarət Palatası, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi və Azərbaycan Banklar Assosiasiyası arasında qarşılıqlı əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb. Hesab edirəm ki, birgə fəaliyyət sayəsində bu sahəyə öz töhfəmizi verəcəyik”.

Maliyyə texnologiyalarının inkişafında startapların mühüm rol oynadığını bildirən nazir Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin fəaliyyət istiqamətlərindən birinin də məhz innovativ inkişafı dəstəkləmək olduğunu diqqətə çatdırıb: “Nazirlik artıq bir neçə ildir ki, startaplara, biznes ideyaların reallaşdırılmasına kömək edir, onlara müsabiqə əsasında qrantlar verir. Ölkəmizdə startap hərəkatının genişləndirilməsi üçün müxtəlif layihələr, təlimlər, müsabiqələr keçirilir. Gənclər arasında böyük maraqla qarşılanan “İ2B - İdeyadan Biznesə” layihəsi də buna bir misaldır”.

Sammit çərçivəsində Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və Səudiyyə Ərəbistanının “Daal Venture Capital” şirkəti arasında əməkdaşlığa dair memorandum imzalanıb.

İki gün davam edəcək tədbirdə “fintech” və bank sənayesinin ən mühüm liderləri bir araya gəlib. Sammitdə 300-dən çox yerli və xarici şirkət, 70-dən artıq natiq və 20-dək ölkədən nümayəndə iştirak edir. Tədbirdə “fintech” liderləri, “C-level” təmsilçiləri, Azərbaycan, Türkiyə, Rusiya, Qazaxıstan, Ukrayna, Gürcüstan və Şərqi Avropanın nəhəng banklarından olan ekspertlər təcrübə mübadiləsi aparıb.

İştirakçılar ödəniş, təhlükəsizlik, data və informasiya texnologiyaları üzrə qlobal şirkətlərin rəhbərləri ilə görüş, panel müzakirələrdə iştirak, B2B görüşlər, startapçılar üçün real sərmayə və potensial müştərilərlə əməkdaşlıq imkanı əldə ediblər.

“Monex Caspian Summit” sərgi, konfrans, marafon, Heydər Əliyev Mərkəzində baş tutacaq qala gecəsi və dünyaca məşhur ifaçının iştirak edəcəyi “Monex Party” kimi bir sıra tədbirlərlə müşayiət olunacaq.

**AZƏRTAC**

# Heydər Əliyev Fondu ilə İtaliyanın TechnipFMC şirkəti arasında əməkdaşlıq memorandumu çərçivəsində magistr proqramı təqdim edilib

**Mayın 30-da Heydər Əliyev Fondu və İtaliyanın neft və qaz şirkəti-TechnipFMC arasında imzalanan əməkdaşlıq memorandumu çərçivəsində həyata keçiriləcək “Neft, qaz və neft-kimya sahəsində təhsil alan tələbələr üçün texnoloji biliklərin ötürülməsi üzrə magistr proqramı” layihəsinin təqdimatı olub.**



AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondu ilə İtaliyanın neft və qaz şirkəti-TechnipFMC arasında əməkdaşlıq memorandumu çərçivəsində neft-qaz sahəsində çalışan tələbələr üçün magistr proqramı üzrə bilik və bacarıqlarının təkmilləşdirilməsi tədbirlərinin keçirilməsi, elm, texnologiya və təhsil sahələrində birgə layihələrin icrası nəzərdə tutulur.

Sənədi Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov və TechnipFMC şirkətinin prezidenti Marko Villa imzalayıb.

Layihə ilə bağlı təqdimat tədbirində Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Təhsil Nazirliyi, Dövlət Neft Şirkəti (SOCAR), Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (ADNSU), Bakı Ali Neft Məktəbi və digər təşkilatların nümayəndələri iştirak ediblər.

TechnipFMC şirkətinin prezidenti Marko Villa çıxış edərək imzalanan əməkdaşlıq memorandumunun əhəmiyyətindən danışıb. O qeyd edib ki, şirkət Azərbaycanla bu sahədə əməkdaşlığı davam etdirmək niyyətindədir: “Bizim şirkətimiz bu sahədə innovasiyaların tətbiqini dəstəkləyir. Biz Azərbaycanla nəqliyyat texnologiyası, innovasiyalar sahəsində əməkdaşlıq edə bilərik”.

Heydər Əliyev Fondunun Beynəlxalq əlaqələr departamentinin rəisi Soltan Məmmədov təlim proqramının məqsədi barədə danışıb. O bildirib ki, bu proqram ölkənin təhsil, ətraf mühit və texnoloji sektorunun inkişafına töhfə verilməsi, texnologiya və sənaye innovasiyalarının azərbaycanlı tələbələrə və peşəkarlara ötürülməsi, onların bilik və bacarıqlarının təkmilləşdirilməsi istiqamətində mühüm layihələrdəndir. Bildirilib ki, memorandum çərçivəsində Azərbaycanda fəaliyyət göstərən müvafiq tədris müəssisələrinin bu layihəyə cəlb olunması nəzərdə tutulur. Magistr proqramı həm ölkə daxilində, həm də xaricdə həyata keçiriləcək.

TechnipFMC şirkətinin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Luici Fiorentino şirkətin ölkəmizdəki fəaliyyəti barədə məlumat verib. O qeyd edib ki, TechnipFMC - dəniz səviyyəsindən aşağıda, quruda və dənizdə, eləcə də yerüstü texnologiyalar sahəsində EPC (Layihələndirmə, Satınalma və Tikinti) qlobal liderdir. Şirkət Azərbaycanda 1997-ci ildən fəaliyyət göstərir və burada “Şahdəniz 1” (TPG-500) üçün birinci platforma kimi çoxsaylı layihələr həyata keçirib. Bundan əlavə, TechnipFMC Azərbaycanda neft-kimya sahəsində yeganə lisenziya almış şirkət olaraq bir sıra layihələr hazırlayıb. Bunların sırasında SOCAR Azərikimya layihəsini qeyd etmək olar. Bu layihədə yeni krekinq sobaları və qaz emalı qurğusu qurulur. Həmçinin SOCAR GPC layihəsində həm qaz emalı, həm də neft-kimya buxarlı krekinq qurğusu da tam olaraq TechnipFMC-nin texnologiyaları əsasında layihələndirilib.

**AZƏRTAC**

# “Azərbaycanın su təhlükəsizliyi: görülmüş işlər, mövcud vəziyyət və perspektivlər” mövzusunda “dəyirmi masa” keçirilib

**Mayın 30-da Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunda “Azərbaycanın su təhlükəsizliyi: görülmüş işlər, mövcud vəziyyət və perspektivlər” mövzusunda “dəyirmi masa” keçirilib.**



AZƏRTAC xəbər verir ki, tədbir “Azərsu” ASC-nin və Coğrafiya İnstitutunun birgə təşkilatçılığı ilə reallaşdırılıb.

Tədbirdə çıxış edən İnstitutun direktoru, akademik Ramiz Məmmədov ölkəmizdə əhalinin içməli su ilə təminatı istiqamətində görülən işlərdən və bu sahədəki problemlərdən danışıb. Bildirib ki, su təhlükəsizliyi məsələsi qlobal miqyasda başlıca problemlərdən biridir. Dünyada su çatışmazlığı probleminin aradan qaldırılması, insanların təmiz və keyfiyyətli suya çıxışının təmin edilməsi istiqamətində ciddi işlər həyata keçirilir. Bunları nəzərə alaraq hər bir ölkə su təhlükəsizliyi məsələsinə xüsusi diqqət yetirir. Azərbaycanda şirin su ehtiyatlarının əsas hissəsinin ölkə hüdudlarından kənarda formalaşması nəzərə alınaraq son illər ölkəmizdə su təsərrüfatı sahəsində irimiqyaslı layihələr icra olunub. Taxtakörpü, Şəmkirçay su anbarlarının inşası, yeni sugötürücü və sutəmizləyici qurğuların inşası ölkəmizdə su təhlükəsizliyinin təmin olunması baxımından olduqca vacib layihələrdir.

“Azərsu” ASC-nin “Sukanal” Elmi-Tədqiqat və Layihə İnstitutunun direktor müavini Fərda İmanov bildirib ki, iqlim dəyişmələri, sənayenin inkişafı, ətraf mühitin və su hövzələrinin çirkləndirilməsi su ehtiyatlarından səmərəli istifadə məsələsinin aktuallığını artırır. Azərbaycanda su təhlükəsizliyinin təmin edilməsi məqsədilə daxili hövzələrdə yaranan su ehtiyatlarından daha səmərəli istifadə edilməsi, su ehtiyatlarının regionların cari və perspektiv tələbatlarına uyğun paylanması istiqamətində araşdırmalar aparılır. Son dövrlərdə müşahidə olunan qlobal istiləşmə və quraqlıqla əlaqədar alternativ su mənbələrinin tədqiqi və işlənməsi istiqamətində tədbirlər görülür. O, tullantı sularının düzgün idarə olunması və təmizlənərək təbiətə qaytarılmasını su təhlükəsizliyinin təmin olunmasında vacib həlqədən biri kimi qiymətləndirib.

“Azərsu” ASC-nin şöbə müdiri Elkin Rüstəmov yeni içməli su mənbələrinin yaradılması istiqamətində görüləcək işlərdən bəhs edib. Bildirib ki, əhalinin fasiləsiz və Dünya Səhiyyə Təşkilatının standartlarına uyğun keyfiyyətli içməli su ilə təmin edilməsi məqsədilə “Azərsu” ASC tərəfindən son 10 ildə icra olunmuş layihələr çərçivəsində Bakı şəhəri və regionlarda ümumi məhsuldarlığı saniyədə 18,5 kubmetr olan 39 yeni su mənbəyi yaradılıb və bu sahədə işlər davam etdirilir. İqlim dəyişmələrinin su mənbələrinin məhsuldarlığına təsiri barədə danışan Elkin Rüstəmov qeyd edib ki, son illər bəzi şəhərləri içməli su ilə təmin edən mənbələrdən götürülən suyun həcmində azalma müşahidə olunur. Bu isə yay aylarında həmin şəhərlərin dayanıqlı içməli su təminatında çətinliklər yaradır. Prezident İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, ötən il Tovuz, Lerik, Gədəbəy, Şamaxı şəhərləri üçün alternativ mənbələrin yaradılması layihələri icra olunub. Eyni zamanda, əhaliyə verilən suyun keyfiyyətinin standartlar çərçivəsində saxlanılması məqsədilə Ağstafa və Qobustanda yeni təmizləyici qurğular istismara verilib. Bunlarla yanaşı, Şəki şəhəri üçün də alternativ mənbənin yaradılmasına başlanılıb və bu məqsədlə subartezian quyuları qazılacaq.

“Azərsu” ASC-nin Mərkəzi Laboratoriyasının müdiri Elçin Əliyev Azərbaycan əhalisinə verilən içməli suyun keyfiyyət standartlarına tam uyğun olduğunu xatırladaraq, mənbələrdən başlayaraq son istehlakçıya qədər onun keyfiyyətinin daim nəzarətdə saxlanıldığını bildirib. Onun sözlərinə görə, Bakı şəhərində yaradılmış müasir laboratoriya, eləcə də 9 regional laboratoriya hər bir mənbədən götürülən suyun daim nəzarətdə saxlanmasını təmin edir. O qeyd edib ki, bu laboratoriyalar yarandıqdan sonra içməli və tullantı suların öyrənilən parametrlərinin sayı 39-dan 110-a, monitorinq nöqtələrinin sayı isə 7 dəfədən çox artırılaraq 1300-ə çatdırılıb.

Elm adamlarının, dövlət təşkilatları və təhsil müəssisələrinin əməkdaşlarının iştirakı ilə keçirilən tədbirdə Azərbaycanın şirin su ehtiyatları, su ehtiyatlarına iqlim dəyişmələrinin təsiri, “Azərsu” ASC tərəfindən icra olunan içməli su layihələri və perspektiv planlar, içməli suyun keyfiyyətinə nəzarət, su sahəsində beynəlxalq əməkdaşlıq və digər mövzularda çıxışlar edilib, müzakirələr aparılıb.

**AZƏRTAC**

# IDEA İctimai Birliyinin təşkilatçılığı ilə Novxanı çimərliyində təmizlik aksiyası keçirilib















**Çimərlik mövsümünün açılışı ilə əlaqədar, mayın 30-da IDEA İctimai Birliyinin təşkilatçılığı, Binəqədi Rayon İcra Hakimiyyətinin dəstəyi ilə növbəti ənənəvi sahilyanı təmizlik aksiyası keçirilib.**

AZƏRTAC xəbər verir ki, Novxanı çimərliyində təşkil edilən aksiyaya Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və 100 nəfərə yaxın könüllü gənc qoşulub.

Tədbirin əsas məqsədi dəniz sahillərində təmizliyə riayət olunmasını təbliğ etmək, sahilyanı ərazilərin məişət tullantıları ilə zibillənməsinin qarşısını almaq və bütün gəncləri dəniz ətraf mühitinin mühafizəsi uğrunda mübarizəyə cəlb etməkdir.

Qeyd edək ki, aksiyanın keçirilməsi üçün xüsusən ictimai çimərlik seçilmiş, insanların rahat, təmiz və təhlükəsiz məkanda pulsuz istirahət edə bilməsi üçün ərazidə oturacaqlar və sanitar qovşaq quraşdırılıb, voleybol üçün meydança salınıb, zibil qutuları yerləşdirilib.

"Sahillər təmiz qalsın" şüarı altında keçirilən təmizlik aksiyası Xəzər dənizi sahillərində gənclərin kütləvi iştirakı ilə baş tutan sayca 11-ci aksiyadır.

Tədbir zamanı zəruri sanitar ləvazimatlarla təchiz olunmuş aksiya iştirakçıları DJ-lərin səsləndirdiyi musiqi sədaları altında çimərlikdən 2 tona yaxın tullantı toplayıblar. Daha sonra tullantılar çeşidlənərək çimərliklərdə ən çox müşahidə olunan zibillər müəyyən edilib. Tullantıların toplanması prosesini daha effektiv təşkil etmək məqsədilə əraziyə xüsusi texnika cəlb olunub.



IDEA İctimai Birliyi yerli və beynəlxalq tərəfdaşlarla birgə mütəmadi olaraq Azərbaycan və regionun su bioresurslarının qorunub saxlanılması, artırılması və mühafizəsi məqsədilə Xəzər sahillərində, Kür və digər çaylarda təmizlik aksiyaları təşkil edir. Çimərlik mövsümünün başlanmasına qədər IDEA İctimai Birliyi tərəfindən Ümumdünya Ətraf Mühit Gününə həsr olunmuş çox sayda gəncin cəlb olunduğu daha bir təmizlik aksiyasının keçirilməsi planlaşdırılıb.

IDEA İctimai Birliyi bütün təbiətsevərləri ekoloji problemlərin həlli istiqamətində təşkil edilən aksiyalara biganə yanaşmamağa və ətraf mühitin qorunmasına öz töhfələrini verməyə çağırır!

**AZƏRTAC**

# Biləsuvar şəhəri Baş planının yekun layihəsi



Biləsuvar Rayon İcra Hakimiyyətində Biləsuvar şəhəri Baş planının yekun layihəsinin ictimai müzakirəsi keçirildi. Müzakirədə Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Mahir Quliyev, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin şəhərsalma və ərazilərin inkişafı şöbəsinin müdiri Alxas Mahmudov, layihənin baş iqtisadçısı Rafiq Mirzəyev, rayonun idarə, müəssisə, təşkilat rəhbərləri, Biləsuvar şəhər icra nümayəndəsi, Biləsuvar bələdiyyəsi və şəhər sakinləri iştirak etdilər.

Təqdimatda iştirak edən Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Mahir Quliyev çıxış edərək bildirdi ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi və tövsiyələri əsasında respublikamızın şəhərsalma və tikinti sahəsində çox böyük işlər görülmüş, bu sahədə görülən işlərin səmərəliliyinin artırılması və tənzimlənməsi məqsədilə qanunlar, fərmanlar, sərəncamlar imzalanmaqla yeni normativ-hüquqi baza yaradılmışdır.

Şəhərsalma və tikinti sahəsində şəhərsalma kadastr xidmətinin təşkili, məlumatların toplanması və bu məlumatlar əsasında şəhərsalma kadastrı məlumat bazasının yaradılması, coğrafi informasiya sistemlərinə əsaslanan şəhərsalma kadastrı xəritələrinin və dövlət informasiya sisteminin hazırlanması xüsusi önəm daşıyır. İcra başçısı bildirdi ki, bu gün respublikamızın hər bir şəhərinin inkişafı, onun gözəlliyinin qorunması və müvafiq kommunikasiya sisteminin hazırlanması məqsədilə şəhərlərin baş planları hazırlanaraq müzakirələr əsasında qəbul edilir və icrasına başlanılır.

Biləsuvar şəhərinin də Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən hazırlanmış baş planı imkan verəcəkdir ki, şəhərin abadlaşdırılması və gözəlləşdirilməsi istiqamətində apardığımız işləri bundan sonra daha konkret şəkildə həyata keçirək.

Sonra Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin şəhərsalma və ərazilərin inkişafı şöbəsinin müdiri Alxas Mahmudov çıxış edərək bildirdi ki, Biləsuvar şəhərinin 2036-cı ilə qədərki dövrdə inkişafına dair Baş planı Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sifarişinə əsasən dövlət büdcəsi hesabına "Azıx" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən işlənilmişdir. Tərtib olunan baş planın yekun layihəsi Şəhərsalma və Tikinti Məcəlləsinin və normativ sənədlərin tələblərinə uyğun hazırlanmışdır.

Qeyd olundu ki, Biləsuvar şəhərinin Baş planının ilkin layihəsi tanış olunmaq üçün 19 oktyabr 2017-ci il tarixindən başlayaraq 60 gün müddətinə şəhərin ictimaiyyətinə təqdim olunmuşdur. Həmin müddət ərzində şəhər ictimaiyyəti, idarə və təşkilatların nümayəndələri, təqdim olunan ilkin layihə ilə tanış olmuş, etiraz və təkliflərini bildirmişlər. Eyni zamanda bildirmək lazımdır ki, Biləsuvar şəhərinin baş planının yekun layihəsinin bu gün aparılan ictimai müzakirəsinin müddəti, yeri və yekun layihə ilə tanış olma qaydası haqqında məlumat bir həftə qabaqcadan sifarişçi tərəfindən ictimaiyyətə internet səhifəsində və Biləsuvar Rayon İcra Hakimiyyətinin inzibati binasında quraşdırılan məlumat lövhəsi yerləşdirilməklə sakinlərin nəzərinə çatdırılmışdır.

Bildirildi ki, icraçı tərəfindən ilkin layihə ilə tanışlıq zamanı ictimaiyyət tərəfindən verilən tövsiyə və təkliflər yekun layihədə öz əksini tapmışdır. İctimai müzakirəyə təqdim olunan Baş planın yekun layihəsi Layihə tapşırığında nəzərdə tutulan mərkəzi icra hakimiyyəti orqanları və digər aidiyyəti təşkilatlar tərəfindən razılaşdırılmışdır.

Təqdimatda İcraçı təşkilatın nümayəndəsi Rafiq Mirzəyev qeyd etdi ki, baş planın hazırlanmasında Dövlət proqramlarının və müvafiq yol xəritələrinin tələbləri və təklifləri nəzərə alınaraq Biləsuvar şəhərin perspektiv sosial-iqtisadi inkişafının əsas istiqamətləri və prioritetləri müəyyən edilərək ayrı-ayrı mərhələlər üzrə konkret tədbirlər təklif edilmişdir.

Tədbirdə çıxış edənlər hazırlanan yekun layihə barədə fikirlərini bildirdilər və verilən suallar cavablandırıldı.

Sonda yekun layihənin ərazi planlaşdırılması sənədlərinin hazırlanmasına dair qüvvədə olan müvafiq normativ-hüquqi aktların tələblərinə tam şəkildə uyğun işlənildiyi, aidiyyəti orqanlarla razılaşdırılaraq qanunvericiliyə uyğun olaraq hazırlandığı bildirildi və təsdiq edilmək üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilməsi təklif edildi.

**Ərəstun ABDULOV,**
**"Respublika".**

# Respublikamızda aparılan islahatların uğur qazanmasında meliorasiya və su təsərrüfatı obyektlərinin rolu

*Azərbaycan Meliorasiya və Su Təsərrüfatı işçilərinin ötən ilki peşə bayramından keçən bir il ərzində ölkəmizin həyatında olduqca mühüm və əhəmiyyətli hadisələr olmuşdur. Bu müddət ərzində respublikamız öz inkişaf tempini daha da sürətləndirmiş, ölkə həyatının müxtəlif sahələrində yeni-yeni uğurlara imza atılmışdır. Bu ilin yanvar ayının 11-də Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkəmizin davamlı inkişafından söhbət açaraq demişdir:* ***"Azərbaycan inkişaf, tərəqqi, sabitlik ölkəsidir. Dünyada və bölgədə gedən proseslərdən asılı olmayaraq Azərbaycan öz müstəqil yolu ilə, inkişaf yolu ilə uğurla gedir və gedəcək".***

2018-ci il ölkəmiz üçün islahatlar ili olmuşdur. Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən islahatların məqsədi ölkəmizin davamlı inkişafına yönəlmişdir. Uğurla həyata keçirilən islahatlar nəticəsində ölkəmizin iqtisadi, sosial, humanitar, mədəni və digər mühüm sahələrində qısa müddət ərzində olduqca böyük uğurlar əldə edilmişdir. Davamlı inkişafa nail olmaq məqsədi ilə həyata keçirilən islahatlar sayəsində ölkəmizin hərtərəfli uğurlar əldə etməsi Beynəlxalq inkişaf təşkilatları tərəfindən də təsdiqlənir.

Dünyada və regionda olduqca mürəkkəb proseslərin getməsinə baxmayaraq ölkəmizdə aparılan islahatlar nəticəsində Azərbaycan iqtisadiyyatının dayanıqlığı təmin olunmuşdur. Ölkə Prezidenti cənab İlham Əliyev ölkəmizdə aparılan islahatların respublikamız üçün olduqca mühüm əhəmiyyət daşıdığını və bu səbəbdən aparılan islahatların bundan sonra da davam etdiriləcəyini bildirmişdir: *"İslahatlar dərinləşəcək. İslahatlara alternativ yoxdur. Siyasi islahatlar, iqtisadi islahatlar, sosial sahədə islahatlar, məhkəmə-hüquq sistemində islahatlar, - artıq müvafiq göstərişlər verilib və sənədlər paketi hazırlanır, - təhsil, səhiyyə sahələrində, hər bir sahədə, Azərbaycan yeni dövrə qədəm qoyub. Azərbaycan yeniləşir, Azərbaycan güclənir və müasirləşir".*

Doğrudan da, möhtərəm Prezidentimizin söylədiyi kimi, hazırda respublikamız elə bir yeni dövrə qədəm qoyub ki, bu dövrdə qazanılmış uğurlar ölkə həyatının ən müxtəlif sahələrində sosial rifahın yüksəlişini, insanların sosial problemlərinin həllini, vətəndaşların həyat səviyyəsinin daha da yaxşılaşmasını gerçəkləşdirmək imkanı yaradır.

Ölkə Prezidenti cənab İlham Əliyevin müəllifi olduğu və onun rəhbərliyi ilə həyata keçirilən islahatlar respublikamızda hamı tərəfindən, eləcə də ölkə melioratorları tərəfindən ürəkdən bəyənilir. Respublikamızın melioratorları ölkə başçısının apardığı Azərbaycanın inkişaf tempinin dinamikliyini daha da sürətləndirən islahatlara öz əməli fəaliyyətləri ilə dəstək verirlər. Belə ki, ölkəmizin bütün sahələrində olduğu kimi, meliorasiya və su təsərrüfatı sahəsində də respublikamızın həyatı üçün olduqca vacib olan bir sıra layihələr uğurla həyata keçirilir.

Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında cənab İlham Əliyevin qeyd etdiyi kimi, ötən il Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC tərəfindən respublikamızda 100 min hektar torpaq sahəsi suvarma suyu ilə təmin olunmuşdur. 60 min hektarının su təminatı yaxşılaşdırılmış bu sahənin 40 min hektarı yeni suvarılan ərazi kimi əkin dövriyyəsinə daxil edilmişdir. Bundan başqa, meliorasiya və su təsərrüfatı işçiləri tərəfindən ötən il ərzində Kür, Araz və eləcə də müxtəlif dağ çaylarının torpaq mühafizə bəndlərinin 133 km-lik hissəsində möhkəmləndirmə işləri aparılmış və burada 3890,0 $m^3$ həcmində daş və betonla sahilbərkitmə işləri yerinə yetirilmişdir.

Respublikamızın müxtəlif çay məcralarında 17,2 mln. $m^3$ həcmində məcratəmizləmə, suvarma və kollektor-drenaj şəbəkələrində isə 62,0 mln. $m^3$ həcmində lildən təmizləmə işləri aparılmışdır. Ölkə ərazisində 5837 hidrotexniki qurğu, 5203 subartezian quyusu, 276 nasos stansiyası təmir edilərək yenidən istismara verilmişdir.

Ötən il ölkə başçısı cənab İlham Əliyev Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC tərəfindən inşa olunmuş bir sıra obyektlərin açılış mərasimində şəxsən iştirak etmişdir ki, bu obyektlərə misal olaraq *"Şəmkir-Samur-Goranboy magistral suvarma kanalının ikinci növbəsinin İpək yolu ilə kəsişmə qurğusunun və ondan sonrakı 4,95 km-lik hissəsi", "Lerik şəhərinin içməli su sisteminin və kanalizasiya şəbəkəsi", "Araz çayının Yeni qol kanalı" və "Ulu Aqro" MMC-nin Qax Aqroparkı"* obyektlərini göstərə bilərik. Ölkə başçısının bu obyektlərin açılışında iştirak etməsi onun respublika meliorasiya və su təsərrüfatı işçilərinin əməyinə yüksək dəyər verməsinin təzahürüdür.

Bu obyektlərlə yanaşı, 2018-ci ildə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti tərəfindən 1900 ha yeni suvarma sahəsini suvarma suyu ilə təmin edəcək "Yuxarı Mil Kanalının tikintisi", 2720 ha yeni suvarma sahəsini suvaracaq "Hacıqabul rayonunun Muğan, Padar qəsəbələrində və Qarasu kəndində torpaq sahələrinin suvarılmasını təmin etmək məqsədilə tədbirlərin görülməsi layihəsi", Saatlı rayonunda 2500 ha, İmişli rayonunda 9645 ha, Biləsuvar rayonunda isə 1000 ha, olmaqla ümumilikdə 13145 ha torpaq sahəsinə suvarma suyunu çatdıracaq "Araz çayının Yeni qolunun beton üzlüyə alınması", Abşeron rayonunda 6710 ha sahənin su təminatını yaxşılaşdıracaq "Abşeron yarımadasında kənd təsərrüfatına yararlı torpaqların suvarma vəziyyətinin yaxşılaşdırılması məqsədi ilə Abşeron magistral kanalında yenidənqurma işlərinin aparılması və kanalın suburaxma qabiliyyətinin artırılması", Goranboy rayonunda 10218 ha sahənin su təminatını yaxşılaşdıracaq, 1570 ha yeni suvarma sahəsini isə suvarma suyu ilə təmin edəcək "Şəmkir-Samux-Goranboy magistral suvarma kanalının 2-ci növbəsinin tikintisi" başa çatdırılıb. Neftçala rayonunda 12433 ha yeni suvarma sahəsini suvarma suyu ilə təmin edəcək "Neftçala magistral kanalının nasos stansiyası ilə tikintisi", Şabran rayonunun inzibati ərazisində yaradılan 1738 ha sahəni əhatə edən "Şabran Aqropark" MMC-nin infrastrukturun qurulması məqsədilə su təminatı və meliorativ işlər", 888 ha yeni suvarılan sahəni əhatə edən "Qax rayonunda yaradılan Aqroparkın ərazisində suvarma suyunun çatdırılması", 1607 ha yeni suvarılan sahəni əhatə edəcək "Xəzər, Pirallahı və Xızı rayonlarının zeytun və badam salınacaq ərazilərdə torpaq sahələrinin suvarma suyu ilə təmin edilməsinin layihə-smeta sənədlərinin hazırlanması və işlərə başlanması", 758 ha yeni suvarılan sahəni əhatə edən "Xəzər rayonunun Qoşa-Qışlaq kəndi ərazisində nəzərdə tutulan yeni əkin sahəsinə suvarma suyunun çatdırılması", 10950 ha sahəni əhatə edən "Sabirabad və Salyan rayonlarında yerləşən qış otlaqlarında meliorativ tədbirlərin aparılması", 7551 ha yeni suvarılan sahəni əhatə edən "Sabirabad rayonunun Sarxanbəyli, Moranlı, Bala Həşimxanlı, Əliləmbəyli kəndlərinin əkin sahələrinin su təminatının yaxşılaşdırılması üçün "H" kanalının yenidən qurulması", layihələri həyata keçirilib. 500 ha yeni suvarılan sahəni əhatə edən "Qazax rayonunun Xanlıqlar, Kəmərli, Aslanbəyli, Qaymaqlı və İkinci Şıxlı kəndlərinin əkin sahələrini su ilə təmin etmək məqsədilə su nasos stansiyalarının və yeraltı suvarma şəbəkəsinin bərpası", 280 ha yeni suvarılan sahəni suvarma suyu ilə təmin edən"Cəbrayıl rayon Cocuq Mərcanlı kəndində əkin sahələrinin suvarma suyu ilə təmin edilməsi", 7122 ha sahənin su təminatını yaxşılaşdıracaq 4762 ha yeni suvarma sahəsini isə suvarma suyu ilə təmin edəcək "Samur-Abşeron suvarma sisteminin yenidən qurulması" layihəsinə daxil olan Xızı, Siyəzən və Şabran rayonlarının əkin sahələrinin su təminatının yaxşılaşdırılması (Şabran rayonu üzrə)", 7312 ha sahənin su təminatını yaxşılaşdıracaq, 1428 ha yeni suvarma sahəsini isə suvarma suyu ilə təmin edəcək "Əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün subartezian quyularının layihələndirilməsi və qazılması" obyektləri tikilərək istifadəyə verilmişdir. Bu obyeklərin istismara verilməsi ölkə iqtisadiyyatının inkişafında olduqca mühüm rol oynayacaqdır.

Onu da qeyd edək ki, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC rəhbərliyi ilə tikilib istifadəyə verilən obyektlərin böyük əksəriyyətinin layihə-smeta sənədləri Su Təsərrüfatı Obyektlərinin Layihələndirilməsi üzrə Azərbaycan Dövlət İnstitutu "Azdövsutəslayihə" tərəfindən işlənib hazırlanmışdır. Ümumiyyətlə, 2018-ci ildə "Azdövsutəslayihə" institutu tərəfindən bir sıra meliorasiya və su təsərrüfatı obyektlərinin, o cümlədən "Şəmkir maşın kanalının tikintisi (II növbə)", "Əhalisi 592736 nəfərə yaxın olan 38 şəhər və rayonun 249 yaşayış məntəqəsində əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 300 subartezian quyusunun layihələndirilməsi və qazılması", 3300 ha sahəni əhatə edəcək "Xəzər, Pirallahı və Xızı rayonlarının zeytun və badam salınacaq ərazilərdə torpaq sahələrinin suvarma suyu ilə təmin edilməsinin layihə-smeta sənədlərinin hazırlanması və işlərə başlanması", "Hacıqabul rayonunun Muğan, Padar qəsəbələrində və Qarasu kəndində torpaq sahələrinin suvarılmasını təmin etmək məqsədilə tədbirlərin görülməsi", 12000 ha ərazini əhatə edəcək "Şəki və Oğuz rayonları ərazisində yaradılacaq Aqroparkın suvarma suyu ilə təmin edilməsi", 52638 ha sahəni suvarma suyu ilə təmin edəcək "Araz çayının yeni qolu vasitəsi yeni suvarılan torpaqların istifadəyə verilməsi" ,"Sel və daşqın təhlükəli çayların zərərli təsirinə qarşı mübarizə və qəza vəziyyətinin aradan qaldırılması tədbirləri" və digər bu kimi obyektlərin layihə-smeta sənədləri institutun mütəxəssisləri tərəfindən tərtib olunmuşdur.

"Azdövsutəslayihə" İnstitutunun kollektivi tərəfindən 2019-cu ildə də respublikamızda inşa olunması nəzərdə tutulan bir sıra su təsərrüfatı və meliorasiya obyektlərinin layihə-smeta sənədləri tərtib olunur. Cari ilin 5 ayı ərzində institutun layihəçiləri "Ağstafa rayonunun Köçəsgər kəndi yaxınlığında yerləşən hərbi hissənin ərazisində qrunt sularının səviyyəsinin aşağı salınması", "Goranboy rayonunun Erkəc kəndi ərazisində yaradılacaq aqroparkın (fındıq bağları) suvarma suyu ilə təmin edilməsi", "Ağcabədi royonunda yaradılan aqroparkın 850 ha əkin sahəsinin suvarma suyu ilə təmin edilməsi", "Füzuli rayonu ərazisində 1200 ha əkin sahəsi olan təsərrüfatın suvarma suyu ilə təmin edilməsi", "Tovuz rayonunun Düz Qırıqlı kəndində yaradılan aqroparkın əkin sahələrinin suvarma suyu ilə təmin edilməsi", "Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin əkin sahələrinin suvarma suyu ilə təmin edilməsi məqsədilə magistral və paylayıcı suvarma şəbəkəsinin tikintisi", "Araz çayının Yeni qolundan suyun yeni suvarılacaq torpaq sahələrinə verilməsi üçün paylayıcı kanalların tikintisi - I mərhələ (ərazinin qrunt sularının səviyyəsinin aşağı salınması tədbirləri)", "Yuxarı Şirvan kanalının Turyançayla kəsişməsinədək dükerin yumaya qarşı mübarizəsi üçün Barraj-fiksatorun təmir-bərpa işləri", "Lənkəran rayonu ərazisində su təsərrüfatı obyektlərinin bərpası və rayon ərazisindəki çaylarda sahilbərkitmə işləri daxilində nəzərdə tutulan obyektlərin tikintisi (Ulumçay çayı), "Astara rayonunun Astara və Pencər çaylarında sahilbərkitmə işləri (Astara çayı)" və "Masallı rayonunda 3230 ha əkin sahəsinin suvarma suyu ilə təminatını yaxşılaşdırmaq məqsədilə 37 kiçik sututarlarda zəruri təmir işlərinin aparılması" obyektlərinin layihə-smeta sənədlərinin hazırlanmasını başa çatdıraraq sifarişçi təşkilata təhvil vermişlər.

Hazırda isə institutda "Ağsu rayonu əkin sahələrinin su təminatının yaxşılaşdırılması üçün Qazanarx kanalının yenidən qurulması", "Şəmkir maşın kanalının tikintisi (II növbə) - kanalın zonasında paylayıcı kanalların tikintisi, "Xəzər və Pirallahı rayonlarının zeytun və badam bağları salınacaq ərazilərdə torpaq sahələrinin suvarma suyu ilə təmin edilməsi



(Xəzər və Pirallahı rayonları üzrə) - III mərhələ", "Yevlax və Goranboy rayonları ərazisində 3120 ha əkin sahəsi olan təsərrüfatın suvarma suyu ilə təmin edilməsi", "Ağcabədi rayonunda 2500 ha əkin sahəsi olan təsərrüfatın suvarma suyu ilə təmin edilməsi", "Biləsuvar rayonunda 1090 ha yeni əkin sahəsinin suvarma suyu ilə təmin edilməsi və kollektor-drenaj sisteminin tikintisi tədbirlərinin layihə sənədlərinin hazırlanması", "Qobustan rayonunun Qaracüzlü kəndi yaxınlığında yaradılmış aqroparka məxsus 998 ha torpaq sahəsinin suvarma suyu ilə təmin edilməsi tədbirlərinin layihə sənədlərinin hazırlanması" və "Azərbaycanın rayonlarında su təchizatının yaxşılaşdırılması məqsədi ilə subartezian quyularının qazılması - 300 ədəd" kimi obyektlərin layihələndirilməsi işləri uğurla davam etdirilir.

Eyni zamanda, respublikamızda istismarda olan bir sıra obyektlərdə aparılacaq təmir-bərpa işlərinin layihə-smeta sənədləri də institutumuz tərəfindən hazırlanır. Bundan başqa, institutumuzun əməkdaşları tərəfindən respublikamızda inşa olunan onlarla su təsərrüfatı və meliorasiya obyektində müəllif nəzarəti işləri də həyata keçirilir.

Bütün obyektlərin layihə-smeta sənədləri institutun kollektivi tərəfindən müasir standartlara uyğun olaraq elm və texnikanın ən yeni nailiyyətləri tətbiq olunmaqla işlənib hazırlanır. Ümid edirik ki, respublikamızda tikilərək istismara verilən hər bir meliorasiya və su təsərrüfatı obyekti respublikamızda aparılan islahatların uğur qazanmasına mühüm töhfə verməklə yanaşı, həm də respublikamızın davamlı inkişafına, ölkə əhalisinin yaşayış səviyyəsinin, sosial rifahının yüksəlişinə yardım edəcəkdir.

**Elbrus PAŞAYEV,**
**"Azdövsutəslayihə" İnstitutunun direktoru, Əməkdar mühəndis, texnika elmləri namizədi.**

*Əhməd bəy Ağaoğlu*

# Böyük mütəfəkkir və ictimai-siyasi xadim

**Yaradıcılığı qədər şəxsiyyəti də, həyat yolu da, yaşadığı dövrü də mürəkkəb və ziddiyyətli olan Əhməd bəy Ağaoğlunun elmi-nəzəri irsinin araşdırıcıları və ümumiyyətlə, XIX əsrin sonu və XX əsrin əvvəllərini əhatə edən Azərbaycan kulturoloji fikrinin tədqiqatçıları bu böyük mütəfəkkirin nəinki bütün əsərlərinin bir araya gətirilməsinin, hətta əsərlərinin mükəmməl biblioqrafiyasının hazırlanmasının nə qədər müşkül bir məsələ olduğu fikrində həmrəydirlər.**

Bu bir həqiqətdir ki, əlli ildən artıq qızğın, fırtınalı, həm də fasiləsiz, aramsız bir yaradıcılıq yolu keçən, adı, şöhrəti Parisdən Bakı və Tiflisə, Peterburq və Moskvaya, bir az sonra İstanbul və Ankaraya, nəhayət, bütün Türkiyə və Yaxın Şərqə yayılan, fəlsəfə, tarix, iqtisadiyyat və din tarixinə, ədəbiyyat, hüquq, ictimaiyyət və elm-mədəniyyət məsələlərinə həsr olunmuş ciddi elmi-nəzəri və publisist əsərlərin müəllifinin, fəal mədəniyyət, elm və siyasət xadiminin, XIX yüzilliyin 90-cı illərindən etibarən dünyanın bir neçə ölkəsinin arxiv və kitabxanalarına səpələnmiş yazılarını toplamaq şərəfli olduğu qədər də ağır bir işdir. Ayrı-ayrı şəxslər tərəfindən görülməsi inanılmayacaq dərəcədə çətin olan bu işə, hələ vaxtilə AMEA-nın müxbir üzvü Əziz Mirəhmədov və akademik Kamal Talıbzadə, sonralar isə bir çox Azərbaycan, Türkiyə və habelə Qərb alimləri zəhmət sərf etsələr də, səmərəli bir nəticənin ortada olmaması faktı, bunun yalnız fərdi şəkildə deyil, elmi bir təşkilat, qurum tərəfindən sistemli və kompleks halda görülməsi zərurətini ortaya qoymaqdadır.

Yalnız kitab halında nəşr edilmiş əsərlərini nəzərdən keçirərkən məlum olur ki, Əhməd bəy Ağaoğlunun yazılarında geniş müzakirələr açdığı, təhlillər apardığı və qənaətlər əldə etdiyi ən mühüm mövzular fərd, hüquq, insan haqları, demokratiya, dil, din, mədəniyyət, millət və dövlət məsələlərinə həsr edilmişdir. Əhməd bəy Ağaoğlunun ayrı-ayrı müəlliflər tərəfindən panislamist, pantürkist, qərbçi adlandırılması səbəbi isə onun həyatı boyu yaradıcılıq fəaliyyətini məhz bu mövzulara həsr etməsi, ictimai, siyasi, elmi fəaliyyətlərinin əsasında mədəni intibah, sivil yaşam tərzi uğrunda mübarizənin durmasıdır.

Əhməd bəy Ağaoğlunun istər Fransa, istər Azərbaycan, istərsə də Türkiyə dövrü fəaliyyətini əks etdirən yüzlərlə məqalənin təkcə sərlövhəsi insanı heyrətə salır və müəllifin biliyinə, məlumat zənginliyinə, mübarizliyinə, prinsipiallığına heyran qalmaya bilmirsən. Onun analitik təhlili, elmi-nəzəri ümumiləşdirmə istedadı ilə bilik, məlumat zənginliyi sintez halında meydana çıxır ki, bu da öz növbəsində tarixi, ictimai, siyasi, mədəni hadisələrə ideya, milli və bəşəri mənəvi dəyərlər baxımından verilən meyarın düzgünlüyünə dəlalət edir.

Təsadüfi deyildir ki, müasirləri Əhməd bəy Ağaoğlunu "Türk təfəkkür və təhririnin çox canlı və həyəcanlı bir siması", "Avropa qəzetçiliyinin Şərqdə çox qüvvətli bir nümayəndəsi", "Yaxın Şərqdəki tarixi avropalaşma hərəkatının ən səmimi ideoloqu" adlandırmışlar. Tədqiqatçıların qənaətinə görə isə Əhməd bəy Ağaoğlu Qərb və Şərq mədəniyyətini birlikdə mənimsəmiş, canına hopdurmuş müstəsna bir şəxsiyyətdir. Əgər Əhməd bəy Ağaoğlunun fəaliyyət və yazılarının əksəriyyətini əvvəllər türk millətçiliyi və türk mədəniyyəti təşkil etmişdirsə, sonralar fikir azadlığı və bilavasitə Avropa mədəniyyətini tam anlamı ilə mənimsəmə mövzuları ağırlıq qazanmışdır. O, Fransada təhsil aldığı illərdə məşhur fransız şərqşünasları Ernest Renan və professor Ceyms Darmestete ilə tanış olmuş, onların mühazirələrini dinləmişdir. Həmçinin Parisdə Cəmaləddin Əfqani ilə tanışlığı onun islamiyyətlə bağlı düşüncələrinə dərin təsir göstərmişdir.

Əhməd bəy Ağaoğlu Parisdə məşhur fransız siyasi nəşrin - "Journaldesdebats"ın İran üzrə müxbiri kimi fəaliyyət göstərmiş və "Jumal de debat", "Revü Veen", "Noyve Revü" kimi fransız mətbu orqanlarında ilk yazılarını dərc etdirmişdir. O, 1892-ci ildə Londonda keçirilən IX Beynəlxalq Şərqşünaslar Konqresində "Şiə dinində məzdəki inancları" mövzusunda məruzə etmiş və həmin məruzənin mətni Kembric Universitetinin nəşr etdiyi topluya daxil edilmişdir.

Fransada təhsil aldığı dövrdə Avropa demokratik ideyalarından və fransız şərqşünas alimlərinin əsərlərindən təsirlənən Əhməd bəy Qarabağa qayıdan kimi tezliklə Azərbaycan xalqının milli özünüdərketmə və türkçülük ideyalarının yayılması işinə başlayır. O, Şuşa şəhərində ilk dəfə qiraətxana-kitabxana açır, şəhərin realnı məktəbində fransız dilini tədris edir. 1894-cü ildə Fransadakı təhsilini bitirdikdən sonra Qafqaza dönən Əhməd bəyə yurddaşları tərəfindən "Firəng Əhməd" ləqəbi M.Ə.Rəsulzadənin yazdığına görə "Firəngistanda oxuduğundan ziyadə firəng fikir və ideyalarını yaymaq xüsusunda göstərdiyi qeyrət üçün taxılmışdı".

Ümumilikdə, Əhməd bəy Ağaoğlu yaradıcılığında və kulturoloji baxışlarında islamçılıq, türkçülük, qərbçilik kimi fikri cərəyanlar özünü qabarıqlığı ilə büruzə vermiş və tarixi, ictimai, siyasi hadisələrin təsiri prosesində bu cərəyanlar bir-birini əvəzləyərək biri digərini doğurmuşdur.

Əhməd bəy Ağaoğlu 1915-ci ildə Afyon nümayəndəsi olaraq Osmanlı Məclisi Məbusanında (Millət Məclisi) təmsil olunmuş, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin (1918-1920) millət vəkili olmuş və 1923-cü ildə Qars vilayəti millət vəkili olaraq 2-ci Dönəm Türkiyə Böyük Millət Məclisinə (1923-1927) seçilmişdir.

Əhməd bəy Ağaoğlunun ailə həyatı da onun düşüncələrinə uyğun və tutarlı bir şəkildə formalaşmışdır. Həm milli dəyərlərə, həm də müasir dünyanın mədəni dəyərlərinə uyğun bir tərzdə yetişdirdiyi övladları Türkiyənin ictimai, siyasi və mədəni həyatında fəal mövqe tutmuşlar. Oğlu Səməd bəy Ağaoğlu ədəbi və siyasi fəaliyyəti ilə Türkiyənin tanınmış şəxsiyyətlərindən biri olmuşdur. Qızları Sürəyya Ağaoğlu və Tezər Taşkıranın adı qabaqcıl türk qadınları arasında yer almışdır. Belə ki, İstanbul Hüquq Fakültəsinin ilk qadın tələbələrindən olan Sürəyya Ağaoğlu Türkiyənin ilk qadın vəkili statusu almış, Avropada ali təhsil almış ilk türkiyəli qadın Tezər Taşkıran isə Cümhuriyyət Xalq Partiyasının üzvü olaraq 1943-cü ildə Qarsdan millət vəkili seçilmişdir.

Haqqındakı çox yığcam təqdimatdan da göründüyü kimi Əhməd bəy Ağaoğlu keşməkeşli həyatı və məhsuldar fəaliyyəti ilə xalqımıza zəngin yaradıcılıq irsi buraxmışdır. Bu mənada, Əhməd bəy Ağaoğlunun 150 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 10 aprel 2019-cu il tarixli Sərəncamı böyük mütəfəkkir və ictimai-siyasi xadimin mədəni irsinə verilən yüksək qiymət kimi tarixi əhəmiyyət daşıyır. Bunu da qeyd edək ki, artıq bu günlərdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Əhməd bəy Ağaoğlunun 150 illik yubileyinin keçirilməsi haqqında sərəncamı ilə əlaqədar olaraq Parisdə - YUNESKO-nun mənzil-qərargahında qurumun himayədarlığı ilə tədbir keçirilmişdir. Yubiley tədbirində Azərbaycan Respublikasının Macarıstandakı səfiri professor Vilayət Quliyev "Əhməd Ağaoğlunun dünyagörüşünün formalaşmasında Fransa mühitinin rolu" adlı məruzə ilə çıxış etmişdir.



Ümidvarıq, Azərbaycan Respublikası Prezidentinin qərarına əsasən Azərbaycan Milli Elmlər Akademiyasının Azərbaycan Respublikası Təhsil Nazirliyi və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi ilə birlikdə hazırlayıb həyata keçirəcəyi tədbirlər planı da Azərbaycanın ictimai, elmi və mədəni həyatına töhfələr verməsi baxımdan yaddaqalan tarixi hadisəyə çevriləcəkdir. İnanırıq ki, dövlət səviyyəsində həyata keçiriləcək bu tədbirlər bütün ağaoğluseverlərin sevincinə səbəb olacaqdır. Bu mənada biz də bir vətəndaş olaraq öz arzu və istəklərimizi aşağıdakı təkliflər şəklində bildirməyi uyğun hesab etdik:

1. Əsərlərinin külliyyatının hazırlanması və nəşri Əhməd bəy Ağaoğlu irsinin təbliği və tədqiqi baxımından faydalı olar.

2. Zəngin ictimai-siyasi fəaliyyətinin və elmi-ədəbi yaradıcılığının gənc nəslə öyrədilməsi baxımından Əhməd bəy Ağaoğlu irsinin orta və ali məktəb dərsliklərinə daxil edilməsi məqsədəuyğun olar.

3. Ermənilər tərəfindən törədilmiş soyqırımı hadisələri zamanı əhalinin təşkilatlandırılması uğrunda gördüyü işləri və Bakı əhalisinin köçürülməsi niyyətlərinə qarşı apardığı ardıcıl və gərgin fəaliyyətləri də nəzərə alaraq Bakıda Əhməd bəy Ağaoğlunun abidəsinin ucaldılması tarixi ədalətsizliyin bərpası baxımından təqdirəlayiq hadisə olar.

4. Hesab edirik ki, həm Azərbaycanın, həm də Türkiyənin ictimai-siyasi həyatında böyük xidmətləri olmuş Əhməd bəy Ağaoğlunun 150 illik yubileyinə həsr edilmiş tədbirlərin, onun təhsil aldığı Fransada - Sarbonna Universitetində, Türkiyədə və İngiltərədə də keçirilməsi faydalı olar.

**Mübariz SÜLEYMANLI,**
**ADMİU-nun professoru,**
**fəlsəfə elmləri doktoru.**
**Rövşən AĞAYEV,**
**Ağaoğlular nəslinin nümayəndəsi.**

# RUHUN EHTİYACINDAN YARANAN POEZİYA

Mənə görə ədəbiyyata, sənətə, ümumən yaradıcılığa olan maraq bir çox səbəbdən yaranır: İnsanın təbiətinə məxsus yaratmaq eşqi, həyatında yaranan minbir təzadları, yaşadığı, müşahidə etdiyi gerçəklikləri özünəməxsus şəkildə təsvirə almaq həvəsi, görüb-müşahidə etdiklərini fərqli bir formada yaddaşa ötürmək, yazmaq vərdişi düşüncə və əməllərini sözün qüdrəti, təsiri ilə ifadə etmək istəyindən və daha nələrdən yaranır. Bir də var, qəlbinin, ruhunun ehtiyacından yaranan yaradıcılıq vərdişi. Bu vərdiş həm də və əsasən Tanrının bəxş etdiyi tükənməz bir eşqlə bağlıdır. Belə bir mənəvi tələbatdan doğan yazmaq istəyi həqiqi yaradıcı insanlara xas olan bir cəhətdir. Şair, publisist Əbülfət Mədətoğlu da məhz ruhunda, gözündə-könlündə daşıdığı həyat gerçəkliklərini, elə həyatın özündə görmək istədiklərini özünəməxsus təsvir-ifadəsi ilə ədəbiyyata gətirmək ehtiyacının tələbi ilə yazıb-yaradır.

Uzun illərdir Əbülfət Mədətoğlunun əsərlərindən görürəm ki, bütün bu sadaladığım cəhətlərin hər biri onun yaradıcılıq laboratoriyasında doğulan, işıq üzünə çıxan ədəbi məhsullarının ərsəyə gətirilməsində mühüm əhəmiyyət kəsb edir. Onun ədəbi aləminə yaxın olan hər kəsə də bəllidir ki, Əbülfətin yaşadığı ömür-gün, mənəvi aləmi ağrı-acılarla doludur. Bunlar şəxsi kədərdən göyərən, həm də milli, ictimai məna kəsb edən kədərdi. Hərdən də bu ovqata bir işıq timsalında çilənən sevinc onu ədəbi yaddaşında közərən könül duyğularını vəsf etməyə həvəsləndirir. Zamanı duymaq, onu müşahidə etmək, görüb-yaşadıqlarına ədəbi həyat vermək Əbülfət Mədətoğlunun bir növ həyat vərdişinə çevrilib. Əslində hər hansı bir işlə, fəaliyyətlə əlaqədar yaranmış vərdiş ictimai əhəmiyyət kəsb edirsə, bu, xalq tərəfindən rəğbətlə qarşılanır. Heç şübhəsiz, ürəyindən keçən, onu duyğulandıran, ehtizaza gətirən bu bədii yaradıcılıq, poetik düşüncələrin ifadəsi elə ruhun ehtiyacıdır. Əbülfəti geniş ədəbi mühitə, oxucu auditoriyasına tanıdan və sevdirən də məhz bunlardır.

Qarabağ dərdləri ilə yüklü olan şair vətəndaşın istəyi əlbəttə ki, doğma yurduna qayıtmaq, dizi üstə çöküb torpağını öpmək, onu gözlərinə sürtməkdir. Allah ona doğma Qarabağa, ocağına, doğulub, boya-başa çatdığı Tuğ kəndinə qayıtmağı qismət eləsin.

Onun bir çox əsərlərinin - "Döymək istədiyim qapılar", "Ürəyimdəki sənsən", "Ehtiyacın elçi daşı", "Nilufər çiçəyi", "Sevgi pıçıltıları", "Üfüqdə görünən adam", "Zəhmli polkovnik", "Sözə ünvanlanmış 15 məktub", "Bir qadına..." kitablarının əsas ideyası, başlıca qayəsi də məhz budur. Bu kitablar müəllifin poeziya, publisistika və bədii nəsrindən ibarət toplulardır və onu da qeyd edim ki, Əbülfət Mədətoğlu bu gün üst-üstə 28 kitabın müəllifi kimi ədəbi-mətbu mühitin mərkəzindədir.

"Bir qadına..." Əbülfətin növbəti kitabıdır və heç şübhəsiz, bu toplu da onun əvvəlki kitablarında olduğu kimi, poetik düşüncələrin qəlbində söz-söz, misra-misra doğulan məqamları, duyğuları rənglərlə süslənmiş mənəvi aləmini işıqlandırmaq ehtiyacından yaranıb. Sözdən hörülmüş yığcam etüdlərin hər biri süjetli həyat lövhələridir. Qəlbin aynasında əks olunan duyğular səltənətinin həzin, kədərli və həsrətli ovqatının ifadəsi, az-azacıq sevincinin parıltılarıdır. Mənə elə gəlir ki, Əbülfətin ilhamının mənbəyi ürəyində yuva quran kədəri və o yuvanın içində həmişə diri olan xatirələrdir. Bütün əsərləri o xatirələrin qüdrətindən yaranır. Xatirələr isə insanın mənəvi mənbəyi-məxəzidir. Bu mənbə də ki, tükənməzdir. O, qaynar həyatın içində var olduqca həmin mənbə-məxəz daha da dolğunlaşır, zənginləşir. Və poetik düşüncələr, süjetli nağıllar, həyat lövhələri də buradan rişə atıb işığa tələsir. **"Dərdim təklikdən yarıcan, Çəkisi yoxdur darıcan... Sən ona söylə barı, can! - Ayaqda dayana bilsin...".** Bu, kökü dərinə işləmiş, bu gün də ondan qəlpə-qəlpə qopan xatirələrin sızıltısı deyilmi?.. Yaxud, şair deyəndə ki: **"Elə istəyirəm qovuşsun yolum, Bir az önə çıxım, öndə dayanım... İndi ki kölgənəm - qoy özüm olum - Mən də günə çıxım, gündə dayanım!.."** - arzusu, istəyi bu xatirələrin işıq zolağından süzülən, yolunu aydınladan ümiddir. Axı kədərin də, qəmin də məzmununda həm də düşünmək, xəyala dalmaq sevdası var. Elə ümid də bu şirinlikdən yaranır.

Əbülfət Mədətoğlunun şeirlərinin dili o qədər rahat, rəvandı ki, çox zaman onlar bir oxunuşdan yadda qalır. Şeirlərinin üslubundan başlamış, onun ifadə tərzi, fikirlərin bir-biri ilə zəncirvari bağlılığı, ovqata köklənməsi şeirdə bir bötövlük yaradır. Bütün bunlar da heç şübhəsiz, şeirin mükəmməlliyini ehtiva edir.

Yenə insanın düşüncələrinə aydınlıq gətirən kədər... Onun evindən işıqlı dünyaya bir pəncərə var. Oradan sabahlara boylananda yaddaşındakı közərtilər alıb aparır şairi. Yaşadıqlarını təzədən duyur, xatırlayır...

*Ürəyim büllur camdı...*
*Çat-çat oldu cam damdı...*
*Bu qandakı nə tamdı -*
*Torpağı xatırladır?!.*

*Canım yandı, közərdi*
*yandığı dərd gözəldi...*
*Dilim sanki xəzəldi -*
*yarpağı xatırladır...*

Əbülfət Mədətoğlunun poeziyası həmişə ədəbi mühitin, ədəbi tənqidin diqqət mərkəzində olub. Ədəbiyyat adamları hər zaman onun yaradıcılığını izləmiş, şeirlərinə münasibət bildirmiş, haqqında dəyərli söz demişlər. Azərbaycanın görkəmli ədəbiyyat adamları, şairlər, yazıçılar onun şeirləri ilə bağlı fikir söyləyib, kitablarına ön söz yazıblar. Bəxtiyar Vahabzadə, Zəlimxan Yaqub, Musa Yaqub, Elçin Əfəndiyev, Vaqif Bəhmənli şair, publisist, nasir Əbülfət Mədətoğlunun yaradıcılığına hər zaman diqqət göstəriblər.

Məlumdur ki, söz adamları həmişə mənəviyyatı maddiyyatdan üstün tutublar. Mənə görə də həyatda yaşamın bir qanadı, əsas




gücü insanın mənəvi aləmi, duyğusallığı, hissiyyatıdır. Axı bu hissetmələr insan düşüncəsinə aydınlıq gətirir, özünü axtarmağa meyilləndirir, tapanda isə o ucalığını, mərtəbəsini həyatın çirkinliklərindən qorumağa çalışır. İnsan öz duyğularının, mənəvi aləminin gözəlliyi ilə də həyatını nizamlayır, bu cəmiyyətdə yerini, mövqeyini qazanmağa çalışır. Ona nail olanda yaşamağında böyük məna görür.

Əbülfət bəzən şeirlərində bu həyatdan "çıxıb getmək istədiyini", "yaşamadığını" və bu qəbildən bir çox fikirlərini önə çəksə də, əslində bunlar həyatı görə-görə, tanıyaraq, duyaraq vəsf etməyə başladığı yolun davamıdır. "Ürəyim evin olsun" şeiri bu dediklərimi ayna kimi əks etdirir: **"Atdığı daşlar dəyir birbaşa ürəyimə... Daşlama, bu evi sən - gir yaşa ürəyimə... Ahdan asma, qovurma xəlbirləmə, sovurma... Sən sevməkdən yorulma - köç yaşa ürəyimə... Bu əzabı, bu qəmi Verdin, seçdim qibləmi! Köçürtdüm sən Kəbəmi- birbaşa ürəyimə!.."**

Bu misralarda sevgi dil açır, öz eşqini izhar edir, yaşamağın gözəlliyini duyur, həyata hüdudsuz bir məhəbbətlə bağlanır. Burada şair ayağı yerdən üzülmüş kimidi, sevginin ipək qanadlarında aləmi dolaşır, dolu ürəyi, oyanmış duyğuları ilə fırçasını əlinə alıb, həyatın rənglərinə ovqatının çalarlarını əlavə edir. Üfüqü öz rənglərinə boyayır.

Başqa bir şeirində dərdin aşıladığı düşüncələr, bu düşüncələrin göyərtdiyi istəklər özgə bir mənada, gözəllikdə təqdim olunur. Burada lirik "mən" ürəyinin qatlarında özünə yer eləmiş dərdinin dili ilə özünü ifadə edir:

*Gözlərimin dibinə*
*bir qaranlıq çökübdü...*
*Dərd ümid köynəyimi -*
*İlmə-ilmə sökübdü...*
*Bu ömrün zərrələr -*
*anlar toplumu "ah"dı...*
*Mənim olmamağım tək -*
*olmağım da günahdı!..*

Bu "günah" əslində yaşamaqdı, yaratmaqdı, yaratdığından zövq almaq, nur paylamaqdı. Əbülfət Mədətoğlunu hələ ki, düşmənə qalmış Qarabağsız yaşadan, ümidlərini, arzularını göyərdən də dərdin ürəyində xatirələrdən açdığı yaddaş ağrısıdır. "Bir qadına..." şeirlər toplusundan ən çox əxz etdiyim bu fikirlər oldu. Yeni kitablarının soraqındayıq, şair!

**Şəfəq NASİR,**
**"Respublika".**

# "Mikroorqanizmlər uşaqların gözü ilə" adlı müsabiqəyə yekun vurulub

**Dünən AMEA-nın Mikrobiologiya İnstitutunun Elm TV ilə birgə təşkil etdiyi "Mikroorqanizmlər uşaqların gözü ilə" adlı müsabiqənin yekun mərhələsi keçirilmişdir.**





Tədbiri giriş sözü ilə AMEA-nın Mikrobiologiya İnstitutunun elmi işlər üzrə direktor müavini, AMEA-nın müxbir üzvü Pənah Muradov açaraq müsabiqə haqqında məlumat verdi. Dövlət Himni səsləndi. P.Muradov qeyd etdi ki, müsabiqə Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 101 illiyinə həsr edilmişdir. Müsabiqənin keçirilməsində məqsəd mikroorqanizmlərin həyat fəaliyyəti, ekoloji funksiyaları və s. xüsusiyyətləri haqqında məktəblilərdə olan təsəvvürlərin genişləndirilməsi, cəmiyyətdə elmi düşüncəyə söykənən fikirlərin aparıcı olmasının aşılanması və cəmiyyətimizin davamlı inkişafı üçün bilikli vətəndaşların yetişdirilməsidir. Mikroorqanimlər, daha dəqiqi mikrobiologiyanın obyektləri olan bakteriya və göbələklərin çoxu adi gözlə görünən olmasa da, onların fəaliyyətlərinin nəticələrini hər birimiz həmişə hiss edir, onların faydalı cəhətlərindən yararlanır, zərərli cəhətlərindən də ziyan çəkirik. Bu proselərin arzu edilən istiqamətə yönəldilməsi, cəmiyyətimizin davamlı inkişafının təminatında mikoorqanzimlərdən daha səmərəli istifadə edilməsi bu gün öz aktuallığı ilə seçilən və istənilən ölkənin prioritet tədqiqat istiqamətlərindəndir. Bu səbəbdən də mikroorqanzimləri dərindən öyrənmək, onlardan səmərəli istifadə etmək üçün onların öyrənilməsi vacibdir və bu işin ilkin mərhələsi onları təsəvvür etmək vacibdir. Bütün bunları nəzərə alaraq AMEA-nın Mikrobiologiya İnstitutunun mikrobioloji biotexnologiya laboratoriyasının müdiri, biologiya üzrə elmlər doktoru, dosent Könül Baxşəliyeva ölkədə dövlətimizin elmin inkişafına yaratdığı şəraitə, şəxsiyyətin inkişafına yönəlik siyasətinə söykənərək uşaqlar arasında belə bir tədbirin keçirilməsi təşəbbüsü ilə AMEA-nın Mikrobiologiya İnstitutunun rəhbərliyinə müraciət etmişdir. Bunu nəzərə alaraq AMEA-nın Mikrobiologiya İnstitutu Elm TV ilə birgə məktəblilərin mikroorqanzimləri necə təsvir etmələrini aydınlaşdırmaq, bu yolda onlara dəstək olmaq üçün həmin təşəbbüsü dəstəkləyərək belə bir tədbir keçirməyi qərara aldı. Cari ilin may ayının 1-də müsabiqənin keçirilməsi haqqında elan verildi. 25 gün müddətinə müsabiqəyə 70-ə yaxın iş (rəsm, tikmə, maket və s.) təqdim edilmişdir. Təqdim edilən işlər Bakı və Sumqayıt şəhərlərinin, Abşeron, İsmayıllı, Zəngilan, Balakən, Şamaxı, Şabran və s. rayonların 30-a yaxın məktəbinin şagirdləri iştirak etmişdir. Müsabiqənin yekunlarına görə 1 nəfərə birinci, 2 nəfər ikinci, 3 nəfər isə 3-cü yerə layiq görülmüşdür. Qaliblərə diplom və pul mükafatı verilmişdir. Bundan başqa, fərqlənən 5 işə müxtəlif hədiyyələr və sertifikat da verilmişdir.

Tədbirdə AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova və Gənc Alim və Mütəxəssislər Şurasının sədri Famin Salmanov çıxış etdilər.

**M.MİRZƏ,**
**"Respublika"**
**Foto: S.MƏMMƏDİNDİR.**

# "Sərhəd" hərbi-idman oyunlarına yekun vuruldu

Dövlət Sərhəd Xidməti sərhədlərimizin etibarlı mühafizəsini təmin etməklə yanaşı, gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi istiqamətində də mühüm tədbirlər həyata keçirir. Bu tədbirlər sırasında xüsusi yer tutan və artıq ənənəyə çevrilmiş "Sərhəd" hərbi-idman oyunları Dövlət Sərhəd Xidmətinin, Təhsil Nazirliyinin, Gənclər və İdman Nazirliyinin birgə tədbirlər planı əsasında keçirilir və gənc nəslin ulu öndər Heydər Əliyevin dövlətçilik ideyalarına sədaqət ruhunda tərbiyə olunmasında, Vətənə, onun sərhədlərinə məhəbbət hissinin aşılanmasında, gənclərdə sərhədçi peşəsinə marağın artırılmasında böyük rol oynayır.

Azərbaycan Sərhəd Mühafizəsinin 100 illik yubileyinə həsr olunmuş və üç mərhələdə keçirilən hərbi-idman oyunlarında bu il 36 sərhədyanı və digər rayonların 207 məktəbinin 1035 şagirdi iştirak etmişdir. İlk iki mərhələnin yekunlarına görə 10 komanda Naxçıvan şəhərinin 9 №-li tam orta məktəbinin, Astara şəhərinin 2 №-li tam orta məktəbinin, Mingəçevir şəhərinin İ.Qayıbov adına 10 №-li tam orta məktəbinin, Siyəzən şəhərinin 1 №-li tam orta məktəbinin, Beyləqan rayonunun Araz qəsəbəsinin F.Miriyev adına tam orta məktəbinin, Cəlilabad rayonunun Ləkin kəndinin tam orta məktəbinin, Xaçmaz rayonunun Gödəkli kəndinin tam orta məktəbinin, Oğuz rayonunun Muxas kəndinin tam orta məktəbinin, Zaqatala rayonunun Muğanlı kəndinin tam orta məktəbinin, Şəmkir rayonu Çaparlı kəndinin tam orta məktəbinin komandaları finala vəsiqə qazanmışlar.

Oyunların final mərhələsi may ayının 18-dən 24-dək Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının



Lənkəran sərhəd dəstəsinin Astara sərhəd komendantlığında keçirilmişdir. Oyun iştirakçıları üçün yaradılmış şərait məktəblilərə öz bacarıqlarını tam və sərbəst şəkildə nümayiş etdirməyə imkan vermişdir.

Final mərhələsində komandalar "Sərhəd pozucusunun yaxalanması və onun təxliyə edilməsi", "Ləpirçilik", "Sərhəd naryadı tərəfindən nəqliyyat vasitəsinə baxışın keçirilməsi", "Maskalanma", "Yaralanmış sərhəd naryadına ilkin tibbi yardımın göstərilməsi və onun təxliyə olunması", "Avtomatın sökülməsi və yığılması", "Tüfəngdən hədəfə atəş açmaq" və "Sıra hazırlığı" üzrə öz bilik və bacarıqlarını nümayiş etdirmişlər.

Hərbi-idman oyununun keçirildiyi günlərdə məktəblilər hərbi hissədə yaradılmış şəraitlə tanış olmuş, onlar üçün bir sıra maraqlı ekskursiyalar təşkil olunmuş, çoxsaylı mədəni-kütləvi tədbirlər, bilik və idman yarışları keçirilmişdir.

Final mərhələsinin yekunlarına görə Beyləqan rayonunun Araz qəsəbəsinin F.Miriyev adına tam orta məktəbinin "Araz" komandası birinci, Siyəzən şəhərinin 1 №-li tam orta məktəbinin "Sərhədçi" komandası ikinci, Cəlilabad rayonunun Ləkin kənd tam orta məktəbinin "Ləkin" komandası isə üçüncü yeri tutmuşdur.

May ayının 24-də "Sərhəd" hərbi-idman oyunlarının yekunlarına həsr olunmuş təntənəli tədbir Dövlət Sərhəd Xidmətinin Lənkəran sərhəd dəstəsində keçirilmişdir. Tədbirdə Dövlət Sərhəd Xidmətinin, Gənclər və İdman Nazirliyinin və Təhsil Nazirliyinin rəsmiləri qalib komandaları təbrik edərək bu oyunların gənclərin hərbi-vətənpərvərlik tərbiyəsində mühüm rol oynadığını vurğulamışlar.

Tədbirdə "Sərhəd" hərbi-idman oyununun qalibləri kubok, diplom və qiymətli hədiyyələrlə mükafatlandırılmışdır.

**Dövlət Sərhəd Xidmətinin**
**mətbuat mərkəzi.**

TƏKRAR

Səbail Rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyi

AÇIQ TENDER ELAN EDİR

Tender 2 (iki) lot üzrə keçirilir:

LOT-1. Mənzil fondunun əsaslı təmirinin satınalınması

LOT-2. Abadlaşdırma işlərinin satınalınması

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki, maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lotlar üzrə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı ş., Xaqani küçəsi 65 nömrəli ünvandan (əlaqələndirici şəxs: Xanzadə Həsənova, tel.: 493-55-43) ala bilərlər.

İştirak haqqı hər bir Lot üçün 150 manat

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

Səbail Rayon Mənzil-Kommunal Təsərrüfat Birliyi
VÖEN: 1700188251
H/H AZ65AIIB33010019443500222105
Bank: "Kapital Bank"ın 1 saylı Səbail filialı
M/h:
AZ37NABZ 01350100000000001944
VÖEN: 9900003611
SWİFT BİK AİIBAZ 2x
Kod: 200059

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

-tenderdə iştirak etmək üçün ərizə;

-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;

-tender təklifi (zərflərin açıldığı gündən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);

-tender təklifi qiymətinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı gündən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);

-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;

-iddiaçının son iki ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;

-iddiaçının son iki il ərzində maliyyə vəziyyəti (dövriyyəsi) haqqında bank arayışı;

-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri, mənfəət vergisinin bəyannaməsi;

-iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları, tikinti-quraşdırma və xüsusi torpaq işləri ilə bağlı lisenziyasının vacibliyi.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri tender təklifi və bank zəmanəti istisna olmaqla 1 iyul 2019-cu il saat 17:00-dək, iş qrafiki, tender təklifi və bank zəmanətlərini isə möhürlənmiş ikiqat zərfdə 9 iyul 2019-cu il tarixdə saat 17:00-a qədər təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri 10 iyul 2019-cu il tarixdə saat 15:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tender Komissiyası.

# Mərkəzi icra hakimiyyəti orqanlarının, digər qurumların rəhbərlərinin və onların müavinlərinin 2019-cu ilin iyun ayında şəhər və rayonlarda vətəndaşların qəbulu

## CƏDVƏLİ

| Mərkəzi icra hakimiyyəti orqanları, digər qurumlar | Qəbul günü | Qəbulun keçirildiyi və əhatə etdiyi şəhər, rayonlar |
|---|---|---|
| **Vüqar Əhmədov**<br>"Azərişıq" ASC-nin sədrinin vəzifəsini icra edən | 03 | **Quba,** Qusar |
| **Ramil Yusifov**<br>"Azərişıq" ASC-nin sədrinin müavini | 03 | **Xaçmaz,** Şabran |
| **Azad Rəhimov**<br>Gənclər və idman naziri | 07 | **İsmayıllı,** Qəbələ, Oğuz |
| **İsmayıl İsmayılov**<br>Gənclər və idman nazirinin müavini | 07 | **Zaqatala,** Balakən |
| **Rüstəm Usubov**<br>Baş prokurorun birinci müavini | 07 | **Daşkəsən,** Kəlbəcər |
| **Əkbər Hacıyev**<br>ARDNŞ-in "Azəriqaz" İB-nin baş direktoru | 07 | **Ağsu** |
| **Ramil İsgəndərov**<br>ARDNŞ-in "Azəriqaz" İB-nin baş direktorunun müavini | 07 | **Qobustan** |
| **Ruslan Əliyev**<br>ARDNŞ-in "Azəriqaz" İB-nin baş direktorunun müavini | 07 | **Şamaxı** |
| **Rövşən Rzayev**<br>Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri | 12 | **Quba,** Qusar |
| **Sabir Əhmədov**<br>Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini | 12 | **Şabran,** Siyəzən |
| **Fuad Hüseynov**<br>Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini | 12 | **Xaçmaz** |
| **Vilayət Zahirov**<br>Ədliyyə nazirinin müavini | 12 | **Samux** |
| **İntiqam Babayev**<br>Gənclər və idman nazirinin müavini | 12 | **Şəki,** Qax |
| **Hicran Hüseynova**<br>Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri | 13 | **Şəki,** Oğuz |
| **Aynur Sofiyeva**<br>Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini | 13 | **Qax,** Zaqatala, Balakən |
| **Ceyhun Həsənov**<br>Ədliyyə nazirinin müavini - Penitensiar Xidmətin rəisi | 13 | **Göygöl** |
| **Ramiz Rzayev**<br>Ali Məhkəmənin sədri | 14 | **Şirvan** |
| **Hikmət Mirzəyev**<br>Ali Məhkəmənin İnzibati-İqtisadi kollegiyasının sədri | 14 | **Saatlı** |
| **Şahin Yusifov**<br>Ali Məhkəmənin Cinayət kollegiyasının sədri | 14 | **Sabirabad** |
| **Fikrət Məmmədov**<br>Ədliyyə naziri | 14 | **Gəncə** |
| **Kəmaləddin Heydərov**<br>Fövqəladə hallar naziri | 14 | **Şəki,** Qax |
| **Rəfail Mirzəyev**<br>Fövqəladə hallar nazirinin birinci müavini | 14 | **Balakən** |
| **Etibar Mirzəyev**<br>Fövqəladə hallar nazirinin müavini | 14 | **Zaqatala** |
| **Namiq Əsgərov**<br>Baş prokurorun müavini | 14 | **Goranboy,** Xocalı |
| **Oruc Zalov**<br>Daxili işlər nazirinin müavini | 14 | **Şirvan,** Hacıqabul, Sabirabad, Saatlı, İmişli, Zərdab, Salyan, Neftçala, Biləsuvar, Cəbrayıl |
| **Sahib Ələkbərov**<br>Vergilər nazirinin müavini | 14 | **İmişli,** Ağcabədi, Beyləqan, Xocavənd, Füzuli, Laçın |
| **Mətin Eynullayev**<br>Vergilər nazirinin müavini | 14 | **Ağsu,** Şamaxı, Qobustan |
| **Qorxmaz Hüseynov**<br>"Azərsu" ASC-nin sədri | 14 | **Quba,** Qusar |
| **Namiq Babayev**<br>Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurası sədrinin müavini | 14 | **Şəki,** Oğuz |
| **Teyyub Cabbarov**<br>"Azərsu" ASC-nin sədrinin birinci müavini | 17 | **Xaçmaz** |
| **Etibar Məmmədov**<br>"Azərsu" ASC-nin sədrinin müavini | 18 | **Şabran,** Siyəzən |
| **Əhməd Əhmədzadə**<br>Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri | 19 | **Sabirabad,** Saatlı |
| **Arzu Rəhimov**<br>Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi | 20 | **Lənkəran,** Astara |
| **Mayıl Şahverdiyev**<br>Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavini | 20 | **Lerik** |
| **Zakir Qaralov**<br>Baş prokuror | 21 | **Yardımlı,** Astara, Lerik |
| **Şahin Mustafayev**<br>İqtisadiyyat naziri | 21 | **Ağcabədi,** Laçın |
| **Niyazi Səfərov**<br>İqtisadiyyat nazirinin müavini | 21 | **Ağdam,** Bərdə |
| **Sahib Məmmədov**<br>İqtisadiyyat nazirinin müavini | 21 | **Tərtər,** Naftalan |
| **İnam Kərimov**<br>Kənd təsərrüfatı naziri | 21 | **İsmayıllı,** Qəbələ |
| **İlham Quliyev**<br>Kənd təsərrüfatı nazirinin müavini | 21 | **Şamaxı,** Ağsu |
| **Seyfəddin Talıbov**<br>Kənd təsərrüfatı nazirinin müavini | 21 | **Göyçay,** Ağdaş |
| **Əbülfəs Qarayev**<br>Mədəniyyət naziri | 21 | **Balakən,** Zaqatala |
| **Vaqif Əliyev**<br>Mədəniyyət nazirinin birinci müavini | 21 | **Şəki,** Oğuz |
| **Rafiq Bayramov**<br>Mədəniyyət nazirinin müavini | 21 | **Qax** |
| **Ramin Quluzadə**<br>Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri | 21 | **Oğuz,** Şəki |
| **Əli Abdullayev**<br>Nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin birinci müavini | 21 | **Qəbələ** |
| **Oqtay Şirəliyev**<br>Səhiyyə naziri | 21 | **Quba,** Qusar |
| **Elsevər Ağayev**<br>Səhiyyə nazirinin müavini | 21 | **Xaçmaz** |
| **Rahim Əliyev**<br>Səhiyyə nazirinin müavini | 21 | **Siyəzən,** Şabran |
| **Mikayıl Cabbarov**<br>Vergilər naziri | 21 | **Zaqatala,** Balakən, Qax |
| **Sahir Məmmədxanov**<br>Vergilər nazirinin birinci müavini | 21 | **Ucar,** Göyçay, Kürdəmir, Ağdaş, Zərdab |
| **Saleh Məmmədov**<br>Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri | 21 | **Qax,** Zaqatala |
| **Əvəz Qocayev**<br>Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini | 21 | **Balakən** |
| **Səfər Mehdiyev**<br>Dövlət Gömrük Komitəsinin sədri | 22 | **Gəncə,** Samux |
| **İsmayıl Hüseynov**<br>Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini | 22 | **Göygöl** |
| **Əsgər Abdullayev**<br>Dövlət Gömrük Komitəsi sədrinin müavini | 22 | **Daşkəsən** |
| **Vilayət Eyvazov**<br>Daxili işlər nazirinin birinci müavini | 22 | **Lənkəran,** Cəlilabad, Masallı, Astara, Yardımlı |
| **Mübariz Qurbanlı**<br>Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri | 25 | **Şəki** |
| **Siyavuş Heydərov**<br>Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini | 25 | **Qəbələ** |
| **Gündüz İsmayılov**<br>Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini | 25 | **Oğuz** |
| **Firidun Qurbanov**<br>Təhsil nazirinin müavini | 25 | **Qax,** Zaqatala, Balakən |
| **Zakir Quliyev**<br>Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədrinin müavini | 25 | **Salyan** |
| **Rafiq Aslanov**<br>Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədrinin müavini | 25 | **Hacıqabul** |
| **Muxtar Babayev**<br>Ekologiya və təbii sərvətlər naziri | 28 | **Quba,** Qusar |
| **Firdovsi Əliyev**<br>Ekologiya və təbii sərvətlər nazirinin müavini | 28 | **Xaçmaz,** Şabran |
| **Rauf Hacıyev**<br>Ekologiya və təbii sərvətlər nazirinin müavini | 28 | **Siyəzən,** Xızı |
| **Pərviz Şahbazov**<br>Energetika naziri | 28 | **Xaçmaz,** Şabran |
| **Samir Vəliyev**<br>Energetika nazirinin müavini | 28 | **Quba,** Qusar |
| **Elnur Soltanov**<br>Energetika nazirinin müavini | 28 | **Siyəzən,** Xızı |
| **Sahil Babayev**<br>Əmək və əhalinin sosial müdafiəsi naziri | 28 | **Gəncə** |
| **Anar Kərimov**<br>Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini | 28 | **Göygöl** |
| **Mətin Kərimli**<br>Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini | 28 | **Samux** |
| **Ceyhun Bayramov**<br>Təhsil naziri | 28 | **Şəki,** Oğuz, Qəbələ |
| **Kərəm Həsənov**<br>Əmlak Məsələləri Dövlət Komitəsinin sədri | 28 | **Şabran** |
| **Rafiq Cəlilov**<br>Əmlak Məsələləri Dövlət Komitəsi sədrinin müavini | 28 | **Xızı** |
| **Rüstəm Şahbazov**<br>Əmlak Məsələləri Dövlət Komitəsi sədrinin müavini | 28 | **Siyəzən** |
| **Məleykə Abbaszadə**<br>Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri | 28 | **Qax,** Zaqatala, Balakən |
| **Ramil Usubov**<br>Daxili işlər naziri | 29 | **Quba,** Qusar, Xaçmaz, Şabran, Siyəzən, Xızı |

**Qeyd:** *Vətəndaşların qaldırdıqları məsələlər qəbulu keçirən təşkilatların səlahiyyətlərinə* aid olmalıdır.

# Azərbaycan Ordusunun hərbi qulluqçusu şəhid olub

**Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhə xəttində atəşkəs rejimini kobud surətdə pozmaqla növbəti dəfə təxribat törədib.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ATƏT-in Minsk qrupunun həmsədrlərinin respublikamızda səfərdə olduğu bir vaxtda - mayın 30-da səhər saatlarında cəbhənin Ağdam rayonu istiqamətində Azərbaycan Ordusunun hərbi qulluqçusu Omarov Aqil Akif oğlu düşmən tərəfindən açılan snayper atəşi nəticəsində şəhid olub.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin əzizlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verir və səbir diləyir.

**AZƏRTAC**

# "İmamzadə" ziyarətgahında iftar süfrəsi

**Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi, Türkiyənin Gəncədəki Baş Konsulluğu, TİKA Bakı Proqram Kordinatorluğu və Türkiyənin Bakıdakı Səfirliyi Din Xidmətləri Müşavirliyinin birgə təşkilatçılığı ilə Gəncədə şəhid və aztəminatlı ailələr üçün iftar süfrəsi açılıb. Gəncə "İmamzadə" Dini Memarlıq Abidə-Kompleksində açılan süfrədə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki Baş Konsulu Zeki Öztürk, şəhər ziyalıları, ağsaqqallar və ictimaiyyət nümayəndələri iştirak ediblər.**

İftar süfrəsi başında müqəddəs "Qurani-Kərim"dən ayələr səsləndirilib. Günün duası ilə möminlər öz oruclarını açıblar.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov çıxış edərək möminləri Ramazan ayı münasibətilə təbrik edib. O qeyd edib ki, 11 ayın sultanı hesab edilən - Ramazan dostluq, qardaşlıq, həmrəylik ayıdır. Azərbaycanda bu gün birlik və sabitlik hökm sürür. Ölkə ərazisində olan dini məbədlərin təmir və bərpasına, islami və milli-mənəvi dəyərlərin qorunmasına diqqət çəkən şəhər rəhbəri Azərbaycanın dünya ölkələri üçün tolerantlıq nümunəsi olduğunu vurğulayıb. Şəhər rəhbəri iftar süfrəsi başına toplananlara cansağlığı və bol ruzi-bərəkət arzulayıb.

Türkiyənin Gəncədəki Baş konsulu Zeki Öztürk tədbir iştirakçılarını salamlayaraq Ramazan ayının yüksək humanizm ideyalarını özündə ehtiva etməsindən söz açıb. O, qeyd edib ki, Ramazan - İslamın ən şəfqətli və müqəddəs ayı hesab edilir. Bu aydan imkansız və kimsəsizlərə yardım göstərmək, dayaq olmaq, bayram sevincini birgə yaşamaq vacib əməllərdəndir.

Türkiyənin Bakıdakı Səfirliyi Din Xidmətləri Müşaviri Kamil Günəş öz çıxışında Türkiyə-Azərbaycan dostluğundan, QMİ-nin səlahiyyətli nümayəndəsi Hacı Tahir Abbasov isə çıxışında müqəddəs Ramazan ayının insanın əxlaqi davranışını tənzimləməsindən, qeybətdən, yalandan çəkindirməsindən söz açıblar.

Süfrə ətrafında on bir ayın sultanı olan Ramazanın fəzilətlərindən danışılıb, bu ayda görülməsi vacib sayılan xeyirxah əməllərdən, savab işlərdən söz açılıb.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# Heydər Əliyev Beynəlxalq Aeroportu UEFA Avropa Liqasının finalı dövründə yüksək hazırlıq səviyyəsini təsdiqləyib

**"Azərbaycan Hava Yolları" (AZAL) bütün mülki aviasiya strukturlarında UEFA Avropa Liqasının finalının keçirildiyi dövrdə ölkəyə gələn qonaqlara və idmançılara yüksək səviyyəli xidmət göstərilməsinin təmin edildiyini bildirib.**

Heydər Əliyev Beynəlxalq Aeroportu 2019-cu il may ayının 27-dən 30-dək ümumilikdə təxminən 600 reysə xidmət göstərmişdir. Onlardan 57-si çarter reysləri, 10-u isə "FlyDubai", "AirArabia", "SCAT", "İsrAir", "Jazeera" və s. kimi aviaşirkətlərin əlavə müntəzəm uçuşlarının payına düşmüşdür.

Azərbaycanın əsas hava limanının sərnişin axını Bakıda Avropa Liqası finalının keçirildiyi dövrdə ümumilikdə təxminən 60 min nəfər təşkil edib.

Sərnişin axını və uçuş-eniş əməliyyatları üzrə hava limanının infrastrukturunda yüklənmənin pik vaxtı 30 may tarixində müşahidə edilmişdir. Belə ki, gün ərzində Heydər Əliyev Beynəlxalq Aeroportu 164 reysə və 18 mindən çox sərnişinə xidmət göstərmişdir.

Paytaxtın hava limanından mayın 30-da rekord sayda - 100-dən çox uçuş həyata keçirilmişdir.

Reyslərin çoxu London-



Bakı-London marşrutu üzrə həyata keçirilmiş, həmçinin Frankfurt, Vyana, Buxarest, Madrid, Nitsa, Afina, Stokholm, Doha və bir sıra digər şəhərlərdən nümayəndə heyətləri, pərəstişkarlar və azarkeşlər paytaxtımıza gəlmişlər.

Heydər Əliyev Beynəlxalq Aeroportu yüksək təhlükəsizlik səviyyəsi və mükəmməl xidmət keyfiyyətini təmin etmiş, aeroportun bütün strukturları gücləndirilmiş iş rejimində fəaliyyət göstərmişdir.

Heydər Əliyev Beynəlxalq Aeroportu bu günlərdə hava limanı üçün yeni olan aviaşirkətlərin - "Enter Air", "Blue Panorama Airlines", "Maleth Aero Aoc Limited", "Hifly Airlines", "WamosAir", "Getjet Airlines" və digər çarter aviaşirkətlərinin təyyarələrini qarşılamışdır. Onlar arasında Londondan göyərtəsində təxminən 500 sərnişin ilə gələn "Hi-Fly" aviaşirkətinə məxsus ən böyük sərnişin təyyarəsi "Airbus A380" olmuşdur.

**Heydər Əliyev Beynəlxalq Aeroportunun mətbuat xidməti.**

# Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının məsul işçilərinin 2019-cu ilin iyun ayında respublikanın bir sıra şəhər və rayonlarında vətəndaşların qəbulu cədvəli

**12 iyun 2019-cu il**
1. Masallı rayonu
2. Şəmkir rayonu
3. Balakən rayonu
4. İsmayıllı rayonu
5. Laçın rayonu

**20 iyun 2019-cu il**
1. Naftalan şəhəri
2. Göygöl rayonu
3. Ağcabədi rayonu
4. Zərdab rayonu
5. Siyəzən rayonu

**Qeyd:** *qəbullar şəhər və rayonlarda saat 10:00-da başlayır.*

*Azərbaycan XİN:*

# Polşa vətəndaşının adı arzuolunmaz şəxslər siyahısından çıxarılıb

**Polşa Respublikasının vətəndaşı Piotr Leoniak Xarici İşlər Nazirliyinə məktubla müraciət edərək adının "Azərbaycan Respublikasının işğal edilmiş ərazilərinə qanunsuz səfər etmiş xarici ölkə vətəndaşlarının siyahısı"ndan çıxarılmasını xahiş edib. Bu barədə AZƏRTAC-a nazirliyin mətbuat xidmətindən məlumat verilib.**

Azərbaycan Respublikasının beynəlxalq tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyü və suverenliyi, eləcə də ölkəmizin qanunlarına hörmət etdiyini bildirən Piotr Leoniak müraciətində səfərin nəticələri barədə məlumatsız olduğunu qeyd edib. Habelə o, işğal olunmuş ərazilərimizə gələcəkdə bu cür qanunsuz səfərlərdən çəkinəcəyini bildirib.

Onun müraciəti müvafiq qaydada nəzərdən keçirilib və adının arzuolunmaz şəxslər siyahısından çıxarılmasına dair qərar qəbul edilib.

**AZƏRTAC**

*XİN:*

# Ermənistan silahlı qüvvələri tərəfindən törədilən bu qanlı əməl təxribat xarakteri daşıyır

**Bu gün Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttinin Ağdam rayonu istiqamətində Ermənistan silahlı qüvvələri tərəfindən atəşkəs rejimi kobud şəkildə pozulub və snayperdən açılan atəş nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçusu şəhid olub. Xüsusilə qeyd etmək istərdik ki, ATƏT-in Minsk qrupunun həmsədrlərinin bölgəyə səfəri zamanı Ermənistan silahlı qüvvələri tərəfindən törədilən bu qanlı əməl təxribat xarakteri daşıyır və münaqişənin həlli üzrə aparılan danışıqları pozmaq məqsədinə xidmət edir.**

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin açıqlamasında yer alıb.

Açıqlamada deyilir ki, işğalçı Ermənistan rəhbərliyinin sözdə münaqişənin həlli üzrə sülh şəraitinin yaradılması bəyanatlarının real və praktiki addımlarla müşayiət olunmadığını, əksinə, Ermənistanın təxribatçı fəaliyyəti ilə sülh danışıqlarına xələl gətirmək niyyətini açıq şəkildə nümayiş etdirən bu qanlı əməl qəti qəbuledilməzdir və danışıqlar prosesinə zərbə vurur.

Törədilmiş qanlı cinayətin bütün mümkün mənfi nəticələrinə görə məsuliyyət tam şəkildə Ermənistanın üzərindədir.

**AZƏRTAC**

# Qida Təhlükəsizliyi Agentliyi və Baş Prokurorluq birgə məlumat yayıb

**Azərbaycan Respublikasında həyata keçirilən dayanıqlı sosial-iqtisadi inkişaf kursunun başlıca prioritetlərindən biri kimi əhalinin sağlamlığının qorunması və qida təhlükəsizliyinin təmin olunması istiqamətində reallaşdırılan ardıcıl və məqsədyönlü tədbirlər davam etdirilir. Qida təhlükəsizliyi sahəsində şəffaflığın, dürüstlüyün təmin edilməsi, korrupsiyaya qarşı mübarizənin aparılması məqsədilə strateji dövlət idarəetməsinin prinsiplərinə uyğun olaraq, bu sahədə yol verilmiş qanun pozuntularının qarşısının alınması və aşkarlanan korrupsiya hüquqpozmalarına qarşı mübarizə çərçivəsində Qida Təhlükəsizliyi Agentliyi ilə Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi tərəfindən birgə tədbirlərin görülməsi davam etdirilir.**

Qida Təhlükəsizliyi Agentliyinin və Baş Prokurorluğun mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, bəzi əməkdaşların ictimai iaşə xidmətləri göstərən ayrı-ayrı fiziki şəxslərə qarşı qanunsuz hərəkətlərə yol verdiyinə dair Qida Təhlükəsizliyi Agentliyinə daxil olmuş məlumatlar əsasında toplanmış materiallar həmin şəxslərin əməllərinə hüquqi qiymət verilməsi üçün Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinə göndərilib.

Baş İdarə tərəfindən aparılmış araşdırmalarla Agentliyin Bakı regional bölməsinin heyvan sağlamlığı və baytarlıq nəzarəti bölməsinin sektor müdiri Elvin Nağıyevin həmin sektorun məsləhətçisi Araz Qazıyev ilə cinayət əlaqəsinə girərək paytaxtın Binəqədi rayonu ərazisində qanunsuz heyvan kəsimi ilə məşğul olan Röyal Əliyevin istifadəsində olan ət mağazasının fəaliyyətinin məhdudlaşdırılmamasından ötrü 150 manat və eyni məqsədlə Sabunçu rayonu ərazisində yerləşən zeytun emalı zavodunun ərazisində antisanitar şəraitdə quş kəsimi ilə məşğul olan Taleh Bəbirovdan 300 manat məbləğində rüşvət almalarına əsaslı şübhələr müəyyən edildiyindən fakta görə Cinayət Məcəlləsinin 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 311.1-ci (rüşvət alma) maddələri ilə cinayət işi başlanıb.

Həmin vəzifəli şəxslərə Cinayət Məcəlləsinin 311.3.1-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən rüşvət alma) və 311.3.2-ci (rüşvət alma təkrar törədildikdə) maddələri ilə ittiham elan olunub. E.Nağıyev barəsində məhkəmənin qərarı ilə həbs, A.Qazıyev barəsində isə polisin nəzarəti altına vermə qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə qeyd olunan qanunsuz halların tam və hərtərəfli araşdırılaraq təqsirli şəxslərin dairəsinin tam müəyyənləşdirilməsi və məsuliyyətə cəlb edilmələri, habelə vurulmuş ziyanın ödənilməsinin təmin olunması istiqamətində Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu bu qəbildən olan qanunazidd hallarla üzləşən ölkə vətəndaşları və sahibkarlara müraciət edərək Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin 161 saylı "Qaynar xətt" əlaqə mərkəzinə və 361-11-76, 361-11-48 nömrələri və ya Qida Təhlükəsizliyi Agentliyinin 1003 saylı "Qaynar xətt" əlaqə mərkəzinə və 377-00-77 nömrəli əlaqə telefonları vasitəsilə məlumat vermələrini xahiş edir.

Qida təhlükəsizliyinə və qida məhsulları istehlakçılarının hüquqlarının pozulmasına yönəlmiş qanun pozuntularının qarşısının alınması istiqamətində Qida Təhlükəsizliyi Agentliyi və Baş Prokurorluq tərəfindən bundan sonra da ən ciddi tədbirlər həyata keçiriləcək.

**AZƏRTAC**

# Azercell Bakıda futbol azarkeşlərini yüksəksürətli internetlə təmin etdi

- Azercell və Ericsson Bakı Olimpiya Stadionunda keçirilən final oyunu zamanı futbol azarkeşlərini üstün mobil şəbəkə ilə təmin etdi.
- Ericsson Radio Sistemi Azercell şəbəkəsinin tutumunu üçqat artırmaqla, azarkeşlərə video yayımı etmək və yüksək keyfiyyətli xidmətlərdən faydalanmaq imkanı yaratdı.
- Ericsson şəbəkənin tutumunu artıran və etibarlı bağlantını təmin edən unikal kompleks həll tətbiq etdi.

Azərbaycanın aparıcı mobil rabitə xidmətləri təminatçısı Azercell və Ericsson (NASDAQ: ERIC) ölkə paytaxtında yerləşən Bakı Olimpiya Stadionunda radio giriş şəbəkəsi (RAN) və transmissiya şəbəkəsini modernləşdirdi. Stadion çoxstandartlı Ericsson Radio Sistemi avadanlıqları, o cümlədən transmissiya və Elastik RAN funksionallığı ilə daha sıx təmin olundu. Ericsson-nun bu həlli 74 radio sektorundan ibarət geniş şəbəkəyə vahid baza stansiyası şəklində işləməyə, beləliklə də resursların idarə olunmasını optimallaşdırmağa və istifadəçi rahatlığını artırmağa imkan verdi.

Unikal Ericsson Radio Sistemi həlli Azercell-in genişzolaqlı mobil internet tutumunu üçqat artıraraq, azarkeşlərə oyunlar zamanı öz smartfonları vasitəsilə yüksək keyfiyyətli video yayımı aparmağa, interaktiv rabitə xidmətlərindən və sosial şəbəkələrdən faydalanmağa imkan yaratdı.

Azercell son illərdə mobil internet istifadəçilərinin davranışlarında əhəmiyyətli dəyişikliklərin baş verdiyini müşahidə edib. Belə ki, istifadəçilərin böyük qismi şəkil çəkdirməkdən daha çox video qeydləri aparmağa üstünlük verir. 2014-cü ildə Braziliyada keçirilən Dünya Çempionatı smartfon istifadəçilərinin daha çox öz şəkillərini paylaşdığı və tamaşaçıların 60 faizinin keçirilən oyunlarla bağlı şəkillər yüklədiyi "selfie" tədbiri olub.

- Ericsson-nun Elastic RAN (E-RAN) şəbəkəsi ilə sonsuz sayda telefon bütün şəbəkə üzrə koordinasiya edilir və istifadəçinin yerləşdiyi yerdən asılı olmayaraq şəbəkə əməliyyatlarının həyata keçirilməsi üçün çeviklik təmin olunur. Mobil şəbəkə daşıyıcılarının koordinasiyası və bir yerə cəmlənməsi internet sürətini və ümumilikdə şəbəkənin fəaliyyətini artırır. Məlumatları yollamaq üçün interfeyslər və E-RAN üçün lazım olan aşağı yubanma dərəcəsini təmin etmək üçün məlumat transmissiya həlli Ericsson Router 6000 məhsullarından istifadə etməklə hazırlandı. Stadion şəbəkəsi mərkəzləşdirilmiş RAN prinsipi əsasında və yüksək göstəricilərə malik və etibarlı DWDM əsaslı optik şəbəkə infrastrukturundan (Ericsson Fronthaul 6000 məhsulları əsasında) istifadə etməklə qurulub. Bu da öz növbəsində Azercell-ə etibarlı və bazarda ən yaxşı mobil yayım xidmətləri təqdim etməyə imkan verdi.





- Azercell şirkətinin prezidenti Vahid Mürsəliyev bildirib: "Bu gün rabitə insanları, ölkələri və cəmiyyətləri bir-birinə daha da yaxın edir. Bu xüsusi hadisə zamanı bizim üçün bir nömrəli prioritet öz abunəçilərimizə, yerli və əcnəbi futbol azarkeşlərinə, qonaqlara oyundan zövq almaq, bu inanılmaz tədbir ilə bağlı yaşadıqları emosiyaları və təəssüratları paylaşmaqlarına imkan yaratmaq olub. Azercell adından mən bizim dəyərli tərəfdaş olan Ericsson şirkətinə məkanı ən son şəbəkə həlləri ilə təchiz etməyə imkan verən öz beynəlxalq təcrübələrini bizimlə bölüşdüklərinə görə təşəkkür edirəm."
